# HƏFTƏ İÇİ

MÜSTƏQİL İCTİMAİ-SİYASİ QƏZET

www.hafta.az

№ 45 (3369) Şənbə / 1-3 may 2021-ci il Qiyməti 40 qəpik


# "QARABAĞA DÖNÜŞ"...

*Azərbaycan Respublikası Dağlıq Qarabağ Bölgəsinin Azərbaycanlı İcması" İctimai Birliyi ictimaiyyətə müraciət edib. Müraciətdə bildirilir ki, İctimai Birlik təşkilatın buraxılmasına qərar verib. "Qarabağa dönüş" adlı İctimai Birlik yaradılır. Bu və digər maraqlı məsələlərlə bağlı "Həftə içi"nin suallarını, artıq ləğv edilən "Azərbaycan Respublikası Dağlıq Qarabağ Bölgəsinin Azərbaycanlı İcması" İctimai Birliyinın sədri, Xankəndinin millət vəkili Tural Gəncəliyev cavablandırıb. Onunla bu qərarın verilməsinin səbəbləri, yeni ictimai birliyin fəaliyyət prinsipləri, sülhməramlıların fəaliyyəti və s. məqamlarla bağlı söhbətləşdik.*





**Tural Gəncəliyev,**
Xankəndinin millət vəkili

***Sual: Dağlıq Qarabağın Azərbaycanlı İcmasının əsasında yeni birlik yaradılması haqqında qərar verildi - "Qarabağa dönüş" İctimai Birliyi. Bu, hansı zərurətdən yarandı və səbəblər nə idi?***

**Cavab:** Dağlıq Qarabağ Azərbaycanlı İcmasının üzvləri videokonfrans şəklində görüşərək, Dağlıq Qarabağ azərbaycanlı İcması İctimai Birliyinin buraxıldığını bəyan etdik. Bildiyiniz kimi, uzun illər ərzində Ermənistan işğalı davam etdiyi dövrdə Dağlıq Qarabağdan məcburi köçkün düşmüş, etnik təmizləməyə məruz qalmış 100 minlərlə insanı birləşdirən Qarabağ İcması indiyədək fəaliyyət göstərirdi. Biz bu illər ərzində Ermənistanın təcavüzünün ifşa edilməsi, hüquqlarımızın bərpa edilməsi, öz torpaqlarımıza, əzəli dədə-baba yurdlarımıza geri dönmək uğrunda mübarizə aparırdıq. İctimai Birlik olaraq, istər ölkə daxilində, istərsə də beynəlxalq istiqamətdə fəaliyyətimizi davam etdirirdik. Beynəlxalq konfranslara gedir, görüşlər keçirir, dəfələrlə erməni icmasına müraciətlər edirdik ki, gəlin sülh şəraitində bir yerdə yaşayaq. Təəssüflər olsun ki, bu illər ərzində Ermənistan işğalçı siyasətini davam etdirdi və bizim çalışmalarımız reaksiya verilmədən qaldı. 44 günlük Vətən müharibəsi baş verdi. Ali Baş Komandanımızın rəhbərliyi altında torpaqlarımızı işğalçılardan azad etdik və yeni reallıq yarandı. Yeni reallığa görə, nə Dağlıq Qarabağ deyilən ərazi mövcuddur, nə də status var. Təbii ki, Dağlıq Qarabağda nə erməni, nə də azərbaycanlı icması ola bilməz. Yəni öz ictimai əhəmiyyətini və aktuallığını itirmişdi. Dağlıq Qarabağ ərazi vahidi mövcud olmadığına görə yalnız Qarabağda Azərbaycan Respublikasının vətəndaşları var və biz də bu dediyimiz məqamlardan irəli gələrək, Dağlıq Qarabağ Azərbaycanlı İctimai Birliyinin buraxıldığını bəyan etdik. Hal-hazırda missiyamız, fokusumuz ondan ibarətdir ki, biz torpaqlarımıza qısa zamanda geri dönməyə hazırlaşırıq, quruculuq-bərpa işləri gedir.

Həmin quruculuq-bərpa işlərində iştirak etmək, geri dönməklə bağlı qarşıda duran yaxın və orta müddətə olan problemlərin, çağırışların öhdəsindən gəlmək məqsədilə, həmçinin cənab Prezidentin rəhbərliyi altında həyata keçirilən bu yenidənqurma və bərpa işləri, tarixi-mədəni abidələrimizin bərpası kimi işlərin uğurla həyata keçirilməsinə dəstək olmaq üçün Qarabağa Dönüş İctimai Birliyinin təsis edildiyini bəyan etdik. Hesab edirəm, cənab Prezidentin rəhbərliyi ilə həyata keçirilən yeni Qarabağ, Qarabağımızın çiçəklənməsi, qurulması missiyasına öz töhfəmizi verəcəyik. Artıq fəaliyyətimizi Qarabağa dönüş İctimai Birliyi adı altında ən yüksək səviyyədə davam etdirəcəyik.

***Sual: Dağlıq Qarabağ Azərbaycanlı İcması anlayışı bundan sonra necə olacaq və ümumiyyətlə, bu məfhum işlənəcəkmi?***

**Cavab:** Dağlıq Qarabağın Azərbaycanlı İcması tarixə qovuşdu. Nə belə bir icma, nə də ümumiyyətlə, Dağlıq Qarabağ deyilən ərazi var. Azərbaycan Respublikasının Qarabağ bölgəsi var. Necə ki, Azərbaycanın digər bölgələri kimi, Qarabağ da bizim ayrılmaz tərkib hissəmizdir və orada yaşayan Azərbaycan vətəndaşları digər rayon və şəhərlərdə yaşayan insanlar kimi orada yaşayacaq. Azərbaycan Respublikası dünyaya bir nümunədir. Müxtəlif etnik, milli azlıqlar çox firavan şəkildə yaşayır. Erməniəsilli vətəndaşlarımız ölkəmizin digər ərazilərində olduğu kimi, Qarabağda da Azərbaycan vətəndaşları olaraq öz həyatlarını sürəcəklər, firavan yaşayacaqlar. Cənab Prezidentin dediyi kimi, Qarabağ təkə Azərbaycanın deyil, dünyanın ən gözəl məkanlarından birinə çevriləcək. Şuşa şəhəri mədəniyyət paytaxtımız kimi Qarabağın incisi, dünyanın ən gözəl şəhərlərindən biri olacaq. Biz də bu işlərin tərkib hissəsi olaraq, bu məsələlərə töhfə verməkdən ötrü əlimizdən gələn hər şeyi edəcəyik.

> *Dağlıq Qarabağın Azərbaycanlı İcması tarixə qovuşdu. Nə belə bir icma, nə də ümumiyyətlə, Dağlıq Qarabağ deyilən ərazi var...*
>
> *Əsas fəaliyyətimiz geriyə ləyaqətli şəkildə dönmək üçün hazırlıqlarımızı sürətəndirməkdir...*

***Sual: Yeni yaradılan Birliyin əsas fəaliyyət istiqamətləri və gələcək planları nədən ibarətdir?***

**Cavab:** Əsas fəaliyyətimiz geriyə ləyaqətli şəkildə dönmək üçün hazırlıqlarımızı sürətəndirməkdir. Qarabağlılarımız, insanlarımız geriyə nə cür dönəcəklər, bu hansı mərhələlərdə həyata keçiriləcək, yeni infrastruktur xətləri, evlərimiz, dağılmış tarixi-mədəni abidələrimizin bərpası necə baş verəcək? Bütün bu məsələlər haqqında məlumat verəcəyik. Qarabağdan olan keçmiş məcburi köçkünlərlə iş aparmaq, onların istər psixoloji, istər sosial problemlərinin həllinə dəstək, onların ləyaqətli şəkildə geri dönüşünə şərait yaratmaq, bu işə töhfə vermək də fəaliyyət prinsiplərimizə daxildir. Məsələn, götürək adi minalanmış əraziləri. Əgər minalanmış ərazilərin xəritəsini Ermənistan tərəfi vermirsə və bu, bilavasitə humanitar hüquqa ziddirsə, biz dönməmişdən öncə öz insanlarımızla iş aparmalıyıq. Minaların təmizlənməsi prosesi nə deməkdir və necə gedir? Biz necə edək ki, təhlükəsizliyimiz təmin olunsun, gedib orada minalardan zərər görməyək?

Səh. 2

## MÜSAHİB

# "1 Mayda Heydər Əliyevdən iki dəfə təbrik almışam..."



**Maksim Musayev,**
Azərbaycan parlamentinin sabiq deputatı

***"Həftə içi"nə növbəti müsahibəsində tanınmış ictimai xadim, sovet dövründə Qax və Xızı rayon partiya komitələrinin 1-ci katibi işləmiş Azərbaycan parlamentinin sabiq deputatı Maksim Musayev o illərdə Beynəlxalq Zəhmətkeşlər Günü kimi qeyd edilən 1 May bayramının keçirilməsi barədə xatirələrindən danışıb.***

*Qaxdakı 1 May tədbirlərinə Bəxtiyar Vahabzadəni, Şirməmməd Hüseynovu, Fərman Kərimzadəni, Məmməd Arifi və başqalarını dəvət edirdik...*

Səh. 3

## MÜSAHİB



**Elşad Mirbəşir,**
Milli Məclisin deputatı

■ Azərbaycan ərazisində bütün hərəkətlənmələr bizim icazəmiz və nəzarətimiz altında olmalıdır...

■ Sülhməramlıların keçmiş münaqişə bölgəsinə yerləşdirilməsinin məqsədi ondan ibarətdir ki, yenidən qarşıdurma baş verməsin, birgə bəyanatın şərtlərinə dəqiqliklə əməl olunsun.

■ Ölkəmizdə bu istiqamətdə kompleks fəaliyyətin həyata keçirilməsi üçün iradə mövcuddur. Korrupsiyaya qarşı mübarizədə intensivlik gözlənilməlidir...

Səh. 6

## GÜNÜN FOTOSU...



**İsraildə Laq ba-Ömər bayramı zamanı yaşanan izdiham nəticəsində baş verən faciə...**

## GÜNÜN SİTATI

> *"Məcburi köçkünlərin işğaldan azad olunan torpaqlara qayıtması üçün sistemli və ardıcıl addımlar atılır"*



**Ceyhun Bayramov,**
Azərbaycanın Xarici İşlər naziri

## KARİKATURA



**Sülh istəyənlərin gerçək üzü...**

# İcra başçılarının "özəl hərracları"

**Vahid Əhmədov,**
Milli Məclisin deputatı

Hərracın təşkili və qiymətləndirmə ilə bağlı Milli Məclisdə qanun layihəsi hazırlanır. Əksər rayonlarda icra başçıları istədikləri yeri özəlləşdirib özlərinə götürürlər.

Səh. 2

## STATİSTİKA



■ **2020-ci ildə qeydə alınmış cinayətlər 2019-cu illə müqayisədə ümumilikdə 36,1 faiz, hərbi xidmət əleyhinə olan cinayətlər 47,6 faiz, qeyri-hərbi cinayətlər isə 18,6 faiz azalıb.**

Qeydə alınmış qəsdən adamöldürmə cinayətləri 30 faiz, qəsdən adam öldürməyə cəhd cinayətləri 71,4 faiz və baş vermiş özünü öldürməyə cəhd hadisələri 60 faiz azalıb.



Səh. 3

# 1 May bayramı...

## PREZİDENTİN İŞ GÜNÜ



***Prezident İlham Əliyev xarici işlər və təhsil nazirinə yeni müavinlər təyin olunması haqqında sərəncamlar imzalayıb.***

Sərəncamlara əsasən, Təhsil Nazirliyində Aparat rəhbəri vəzifəsini icra edən Muxtar Məmmədov təhsil nazirinin müavini, Xarici İşlər Nazirliyində Ümumi katibliyin rəisi vəzifəsində çalışan Elnur Məmmədov isə xarici işlər nazirinin müavini təyin edilib.

Muxtar Məmmədov 2005-2013-cü illərdə Xarici İşlər Nazirliyində çalışıb və ikinci katib vəzifəsinədək yüksəlib. 2013-cü ildən isə Təhsil Nazirliyində çalışır. Nazirliyin Beynəlxalq əməkdaşlıq şöbəsində sektor müdiri, müdir müavini və şöbə müdiri vəzifələrində çalışıb. 2018-ci ilin yanvar ayından isə Aparat rəhbəri vəzifəsini müvəqqəti icra edirdi. Xatırladaq ki, Muxtar Məmmədov ötən il iyunun 23-də Prezident İlham Əliyevin "Dövlət qulluqçularının təltif edilməsi haqqında" sərəncamı ilə dövlət qulluğunda səmərəli fəaliyyətlərinə görə təltif olunub.

Digər yeni təyin olunan nazir müavini Elnur Məmmədov isə 2004-cü ildə ABŞ Departamentinin Edmund Muskie tələbə təqaüd proqramının qalibi olaraq Vaşinqton Universitetinin hüquq fakültəsinin magistr səviyyəsini (2005) fərqlənmə diplomu ilə bitirib. 2007-2010-cu illərdə BDU-nun hüquq fakültəsinin mülki hüquq kafedrasında beynəlxalq kommersiya əqdləri fənnini ingilis dilində tədris edib. 2018-ci ildə Fransada yerləşən nüfuzlu INSEAD biznes məktəbinin idarəçilik ixtisası üzrə məzunu olub.

Müxtəlif illərdə Vergilər Nazirliyinin aparatında (şöbə rəisi), özəl hüquq şirkətində, ölkə iqtisadiyyatının real sektorunda fəaliyyət göstərən iri investisiyalı müəssisələrdə baş direktorun müavini, direktorlar şurasının üzvü və sədri vəzifələrində çalışıb. O, 2018-ci ildə təhsil nazirinə müşavir təyin olunub. 2020-ci ilin iyun ayında isə E. Məmmədov xarici işlər naziri Ceyhun Bayramovun əmri ilə XİN-nin Ümumi Katibliyinin rəisi vəzifəsinə təyinat alıb.

***

**Prezident Ilham Əliyev qoyuluş gücü 240 MVt olan külək elektrik stansiyasının tikintisi üçün Azərbaycan Respublikası Hökuməti adından imzalanmış mqavilənin təsdiq edilməsi haqqında sərəncam imzalayıb.**

Sərəncama əsasən, Azərbaycan Respublikasının Hökuməti adından Azərbaycan Respublikasının energetika naziri tərəfindən 2020-ci il dekabrın 29-da imzalanmış "Azərbaycan Respublikası Hökuməti və "ACWA Power Azerbaijan Renewable Energy" Məhdud Məsuliyyətli Cəmiyyəti arasında Azərbaycan Respublikasında Ərazi 1 və Xızı 3 Külək Enerjisi Layihəsi haqqında İnvestisiya müqaviləsi" təsdiq edilib.

Nazirlər Kabineti bu Sərəncamın 1-ci hissəsində göstərilən müqavilənin həyata keçirilməsi üçün zəruri tədbirlər görməlidir. Bu Sərəncam imzalandığı gündən qüvvəyə minir.

## Prezident pravoslav xristian icmasını təbrik edib

***Prezident İlham Əliyev Azərbaycanın pravoslav xristian icmasına təbrik ünvanlayıb. Təbrikdə deyilir:***

"Hörmətli həmvətənlər! Müqəddəs Pasxa bayramı münasibətilə sizi - Azərbaycanın bütün xristianlarını ürəkdən təbrik edir, hamınıza ən səmimi arzu və diləklərimi yetirirəm.

Zəngin multikultural dəyərlərə, tolerantlıq ənənələrinə və nümunəvi dövlət-din münasibətləri modelinə malik olan ölkəmizdə ayrı-ayrı xalqların və konfessiyaların nümayəndələri yüz illərdir ki, mehriban qonşuluq, dostluq və qardaşlıq mühitində vahid ailə kimi yaşayırlar. Cəmiyyətimizdə etnik-mədəni müxtəlifliyin qorunub saxlanılması, qarşılıqlı hörmətə və etimada əsaslanan birgəyaşayış mədəniyyətinin təşviqi həyata keçirdiyimiz dövlət siyasətinin əsas prioritetlərindən biridir. Müasir dünyada sivilizasiyalararası və mədəniyyətlərarası dialoqa mühüm töhfələr verən Azərbaycanda dilindən, dinindən, etnik mənsubiyyətindən asılı olmayaraq, bütün vətəndaşlarımız, o cümlədən pravoslav xristianlar ölkədə gedən böyük quruculuq işlərində və respublikamızın sosial-mədəni həyatında fəal iştirak edirlər. Vətən müharibəsi zamanı torpaqlarımızın işğaldan azad olunmasında xristian həmvətənlərimizin xidmətlərini yüksək qiymətləndirirəm. İnanıram ki, onlar Azərbaycanın tərəqqisi və çiçəklənməsi naminə qüvvələrini səfərbər edərək bundan sonra da əzmlə çalışacaqlar.

Pasxa bayramı paklığı, yeniliyi, dirçəlişi və xeyirxahlığı təcəssüm etdirir. Bu əziz gündə bir daha hər birinizə xoş bayram ovqatı, ailələrinizə əmin-amanlıq, xoşbəxtlik və rifah arzulayıram. Bayramınız mübarək olsun!".

HƏFTƏ İÇİ
MÜSTƏQİL İCTİMAİ-SİYASİ QƏZET

Təsisçi və
baş redaktor:
Sevinc Seyidova

Qəzet Mətbuat və İnformasiya Nazirliyində qeydə alınıb
(lisenziya 022303), "Həftə içi"nin kompüter mərkəzində yığılır,
səhifələnir və "CBS" mətbəəsində çap olunur.
Müəllifin mövqeyi redaksiyanın mövqeyi ilə üst-üstə düşməyə bilər.
Qəzet çərşənbə axşamı, cümə axşamı və şənbə günləri nəşr edilir.

Qəzet 22 iyul 1998-ci ildən çıxır. Tiraj -2000

"Həftə içi" nəşriyyat MMC, VÖEN 1600386721, "KAPITALBANK" ASC
1 saylı Səbail filialı Kod: 200059 VÖEN: 9900003611
M/h: AZ37NABZ01350100000000001944
S.W.İ.F.T.Bik AİİBAZ 2X

Ünvan:
Azərbaycan, Bakı şəhəri, H.Zərdabi, 71A mənzil -10
Tel.: - 433-27-63.
E-mail: hafta-ici@rambler.ru,
web-sayt: www.hafta.az

# İcra başçılarının "özəl hərracları"

## Aktual

***Azərbaycanda korrupsiya və rüşvətə qurşanmış məmurlara qarşı mübarizə davam edir. Buna baxmayaraq, bəzi icra başçıları baş verən həbslərdən nəticə çıxarmaq niyyətində deyillər və özlərini Prezidentin səlahiyyətli nümayəndəsi deyil, şah kimi aparmaqda davam edirlər. Onların "rəhbərliyi altında" büdcə vəsaitləri və dövlət əmlakı talanır, vətəndaşlara yuxarıdan-aşağı baxılır, büdcə təşkilatlarında çalışanlardan "xərac" toplanır, yerli sahibkarlara fəaliyyət göstərmələri üçün "haqq" qoyulur.***



Elə icra başçıları da var ki, vətəndaş qəbulunu da kefinə uyğun təşkil edir. Yəni əhval-ruhiyyəsi yerində olmayanda başçının qəbuluna düşmək müşkül məsələdir. Bir sözlə, həmin icra başçıları özlərinə sərvət toplamaqla məşğuldurlar. Təbii ki, bu cür "idarəetmə" formasını seçən icra başçılarının hər birinə gec-tez məhbəs yolu görünəcək. Necə ki, Alimpaşa Məmmədov kimi. Şəmkirin keçmiş icra başçısı da dövlət əmlakını talamaqda öz "dəst-xətti" ilə seçilir. Məsələn, təxminən, 3 milyon manata yaxın qiyməti olan dövlət əmlakını vur-tut 40 manata oğlunun adına özəlləşdirib.

Onu da qeyd edək ki, Şəmkirin keçmiş icra başçısı Alimpaşa Məmmədovun həbsi ilə məhbus həyatı yaşayan icra başçılarının sayı 7-yə çatıb. Sözügedən şəxslə bağlı Dövlət Təhlükəsizliyi Xidmətinin (DTX) yaydığı məlumatda qeyd olunur ki, başlanılmış cinayət işi üzrə araşdırmalar zamanı Məmmədov Alimpaşa Adil oğlunun Şəmkir Rayon İcra Hakimiyyətinin başçısı kimi vəzifə səlahiyyətlərindən sui-istifadə edərək, Şəmkir rayonu Çinarlı bələdiyyəsi tərəfindən təsis edilmiş, mülkiyyətində 2 milyon 844 min manat dəyərində əmlakı olan Çinarlı Qəsəbə MMC-nin bütün paylarını oğlu Adilzadə Adil Alimpaşa oğlu və tabeçiliyində fəaliyyət göstərən digər şəxslərə məxsus Şəmkir Səbət Ticarət Mərkəzi MMC-yə cəmi 40 manata satılmasını, Şəmkir şəhər Bələdiyyəsi tərəfindən təsis edilmiş, mülkiyyətində 967 min manat dəyərində qida məhsulları istehsal zavodu olan Abad Şəmkir MMC-nin bütün paylarını oğlu Adil Adilzadəyə cəmi 180 manata satılmasını təmin edib, xüsusilə külli miqdarda dövlət əmlakını mənimsəməsinə əsaslı şübhələr müəyyən edilib. Bundan başqa, Alimpaşa Məmmədovun Şəmkir rayon ərazisində abadlıq işlərinin görülməsi ilə bağlı Ağstafasutikinti MMC-nin hesabına köçürülmüş 218 min manat külli miqdarda pul vəsaitini nağdlaşdıraraq təkrar mənimsəmə yolu ilə ələ keçirməsinə, Şəmkir rayonu ərazisində dövlət büdcəsindən ayrılan vəsaitlər hesabına tikinti və abadlıq işləri, əsaslı və cari təmir, habelə yolların təmir edilməsi ilə bağlı işləri yerinə yetirən ayrı-ayrı şəxslərdən ümumilikdə 382 min manat, rayon ərazisində sahibkarlıq və yaşayış təyinatlı tikinti işlərinin aparılması ilə bağlı ayrı-ayrı vətəndaşlardan ümumilikdə 217 min manat vəsaiti tabeçiliyində olan şəxslər vasitəsi ilə rüşvət qismində istəyərək almasına əsaslı şübhələr müəyyən edilib. Alimpaşa Məmmədovun, həmçinin rayon icra hakimiyyəti başçısının ərazi icra nümayəndələri və digər yerli dövlət təsisatlarının vəzifəli şəxslərindən müxtəlif adlar altında 3 min - 10 min manat məbləğində pul vəsaitləri tələb edərək almasına dair əldə edilmiş məlumatlar üzrə araşdırma aparılır. Eləcə də onun mənimsəmə və rüşvət alma yolu ilə pul vəsaitlərinin əldə edilməsinin həqiqi mənbəyini gizlətmək məqsədi ilə 832 min manat vəsaitin oğlu Adil Adilzadənin adına təsis etdiyi "Az Forel" MMC-nin Şəmkir rayonunda yerləşən balıqyetişdirmə və emalı müəssisəsinin tikintisinə və digər xərclərinə yönəltməklə cinayət yolu ilə əldə etdiyi külli miqdarda pul vəsaitlərini leqallaşdırmasına əsaslı şübhələr müəyyən edilib.



**Vahid Əhmədov,**
Milli Məclisin deputatı

> *Hərracın təşkili və qiymətləndirmə ilə bağlı Milli Məclisdə qanun layihəsi hazırlanır*
>
> *Əksər rayonlarda icra başçıları istədikləri yeri özəlləşdirib özlərinə götürürlər*

Maraqlıdır, icra başçısı, təxminən, 3 milyonluq dövlət əmlakının 40 manata satılmasına necə nail ola bilib? Bu "özəl hərracı" kimlər təşkil edir? Ümumiyyətlə, özəlləşdirmə sahəsində Azərbaycanda vəziyyət necədir?

■ **Məsələni hafta.az-a şərh edən millət vəkili Vahid Əhmədov deyib ki, özəlləşdirmə prosesinin qeyri-şəffaf keçirilməsi icra başçıları üçün əla fürsətdir: "Burada qeyri-adi heç nə yoxdur. Bu hadisə bir Şəmkirdə deyil. Bütün rayonlarda belə faktlar var.** Əksər rayonlarda icra başçıları istədikləri yeri özəlləşdirib özlərinə götürürlər. Özəlləşdirilən əmlakı da aşağı qiymətə danışırlar. Belə hadisələr bu gün də davam edir. Düzdür, Azərbaycanda özəlləşdirmə faktiki olaraq başa çatıb. İndi iri obyektlərin, səhmdar cəmiyyətlərin və s. özəlləşdirilməsi qalıb. Onların da özəlləşdirilməsi getməlidir, amma özəlləşdirmənin şəffaflığa gedən yolu hərracdır. Hərracın düzgün qurulması və düzgün qiymətləndirmə əsas şərtdir. Ümumiyyətlə, qiymətləndirmə çox ciddi məsələdir. Bu məsələ ilə əlaqədar indi Milli Məclisdə qanun layihəsi hazırlanır. Bu sənəd hazırlanır ki, sonradan qiymətləndirmə ilə bağlı hansısa suallar yaranmasın, çünki dəyərindən aşağı qiymətə hansısa obyektin satılması ancaq qiymətləndirmənin düzgün aparılmaması ilə bağlıdır".

İcra başçılarının fəallıq göstərdiyi "özəl hərraclar"ın kimlər tərəfindən təşkil edilməsinə gəlincə, millət vəkili deyir ki, rayonlarda son sözü həmişə icra başçıları deyir: "İndi elə bir şərait yaranıb ki, icra başçılarının işinə heç kim, hətta hüquq mühafizə orqanları da müdaxilə eləmir. Əsas bu işə cavabdeh icra başçılarıdır. Bu kimi hərraclar məhz onların rəhbərliyi altında keçirilir. Ya əmlakı özlərinə götürürlər, ya da başqasının adına keçirirlər. Düzdür, bunu bütün icra başçıları barədə deyə bilmərəm. Bizdə də bu işlə məşğul olan icra başçıları ilə bağlı konkret məlumatlar var, yəni bu hadisə təkcə Şəmkirdə baş vermir".

### Ekspert rəyi...

■ **Məsələyə münasibət bildirən əmlak məsələləri üzrə ekspert Elnur Fərzəliyev deyir ki, hər hansı bir əmlakın üzərində qiymətləndirmə statusu varsa, həmin prosesdə dövlət və ya özəl qiymətləndiricilərin xidmətindən istifadə olunur:**

"Mövcud qaydalara görə, qiymətləndirmə aparılarkən qiymət real bazar qiymətlərinə uyğun olmalıdır. Bu baxımdan, milyonluq əmlaka dəfələrlə ucuz bir qiymət təyin edən qiymətləndirici şirkət də məsuliyyət daşımış olur. Yəni, bu işi təşkil edən şəxslərlə bərabər əmlaka qiymət qoyan tərəf də məsuliyyət daşıyır. Belə işlərdə qiymətləndirmənin formal şəkildə həyata keçirilməsi, ümumiyyətlə, qiymətləndirmə aparılmaması və formal hərrac təşkil olunması da mümkündür. Ola bilər ki, minimal qiymətlə hərrac təşkil olunub, amma hərracda digər şəxslərin iştirakı təmin edilmədiyindən, elə bir nəfərə minimal qiymətə satılıb. Bunlar hər iki halda həm təşkilatçı, həm də qiymətləndirici üçün məsuliyyət yaradır".

✍ **Sevinc**

# "Qarabağa dönüş"...

## Gündəm

◂ əvvəli 1-ci səhifədə

Təəssüflər olsun ki, Ermənistanın bu cinayəti nəticəsində, artıq onlarca mülki vətəndaşımız öz həyatını itirib. Ləyaqətli, təhlükəsiz dönüş bu deməkdir. İş yerləri necə bərpa olunacaq, bunları biz müzakirə etməliyik. Qarabağlılarla birgə harada idik, bu gün haradayıq və səhərisi gün hara gedirik? Yol xəritəmiz artıq müəyyən olunub və bu addımları bir yerdə atacağıq.

***Sual: Qeydiyyatla bağlı nə vaxt müraciət edəcəksiniz? Üzvlər kimlər olacaq? Yenə də Dağlıq Qarabağ İctimai Birliyindəki üzvlərmi təşkil edəcək yeni yaradılan birliyin əsasını...***

**Cavab**: Bunlar texniki detallardır, yaxın günlərdə öz həllini tapacaq və aydınlıq gətiriləcək. Əsas olan konseptual yanaşma ilə desək, fəlsəfəmiz ondan ibarət idi ki, Dağlıq Qarabağ Azərbaycanlı İcması öz əhəmiyyətini itirdi, yoxdur. Yeni Qarabağa Dönüş ictimai Birliyi var.

***Sual: Dağlıq Qarabağa Qayıdış İctimai Birliyi tərəfindən indiki Xankəndidə və digər ərazilərdə yaşayan ermənilərlə ünsiyyət qurulması nəzərdə tutulubmu? Bu hansı mərhələdə və hansı meyarlar əsasında həyata keçiriləcək?***

**Cavab:** Mən özüm Xankəndinin millət vəkili olaraq, Xankəndi şəhərini təmsil edirəm. Orada yaşayan azərbaycanlı və erməni vətəndaşlarımızın təmsilçisi olaraq, istər azərbaycanlı vətəndaşlarımızdan, istərsə də erməniəsilli vətəndaşlarımızdan müraciətlər alıram. Təbii ki, ermənilərdən biz əsasən sosial şəbəkələr vasitəsilə müraciətlər alırıq. Onlara izah edirik ki, yaxın gələcəkdə Xankəndidə, Qarabağın digər şəhərlərində, qəsəbələrində Azərbaycan Respublikasının bayrağı, qanunları çərçivəsində firavan yaşayacağıq. Buna hamının razı və hazır olması, məqsədlərə, amallara çatması üçün birgə fəaliyyət aparılmasına tərəfdar olmasını bildiririk. Yəni erməniəsilli vətəndaşlarımız da Azərbaycan Respublikasının vətəndaşı olmaq şərəfindən, o imtiyazlara sahib olmaqdan qürur duyacaqlar. Regionun ən güclü iqtisadi, siyasi, sosial dövləti Azərbaycandır. Azərbaycan Respublikasının vətəndaşı olmaq, təbii ki, imtiyaz yaradır. Bunu cənab Prezident də qeyd etdi, artıq yeni reallıqlar var. Zəngəzur dəhlizi fəaliyyətə başlayacaq. Region bütövləşəcək, yeni əməkdaşlıq platforması çərçivəsində Çindən Avropaya qədər insan daşımaları məhz Azərbaycan üzərindən həyata keçiriləcək. Şimaldan Hind okeanına qədər yeni şimal-cənub dəhlizinin Azərbaycan ərazisindən keçməklə ehtiva olunması və ərsəyə gəlməsi - bunlar onu göstərir ki, Azərbaycan Respublikası, artıq müharibədən sonra yeni real güc mərkəzi olaraq, meydana çıxmışdır. Bütün dünya ölkələri, dünya liderləri məhz cənab Prezidentə bu məsələ ilə bağlı müraciətlər edirlər. Qarabağda yenidənqurma, bərpa işlərində fəal iştirak etmək istəyirlər. Hər bir ölkə istəyir ki, öz şirkətini, investisiyasını regiona gətirsin. Sizin Cənubi Qafqazın xəritəsinə baxanda avropalı, amerikalı olaraq, birinci görmək və əməkdaşlıq etmək istədiyiniz ölkə Azərbaycandır. Digər ölkələr potensial olaraq, Azərbaycanın kölgəsində geridə qalır.



**Tural Gəncəliyev,**
Xankəndinin millət vəkili

***Sual: May ayının 9-da rus sülhməramlıları Xocalıda parad keçirmək istəyir. Bu məsələyə münasibətinizi və ən əsası, sülhməramlıların fəaliyyətinin sizi qane-edib-etməməsini öyrənmək istərdim.***

**Cavab:** Hesab edirəm ki, orada yerləşdirilmiş sülhməramlıların əsas missiyası daimi deyildir. Onlar öz missiyalarını həyata keçirdikdən sonra öz ölkələrinə geri dönəcəklər. Müharibədən sonra olacaq reallıq hər bir tərəfə, o cümlədən Ermənistana, onun havadarlarına, bizim regionda olan istənilən ölkəyə göstərir ki, onlar öz hərəkətlərində korrektə etməlidirlər. Azərbaycan Respublikası öz milli maraqları çərçivəsində addımları müstəqil şəkildə atır və tərəfdaşlarımıza da biz bunu bildiririk. İstər Rusiya, istərsə də qardaş Türkiyə ilə münasibətlərimizi elə qururuq ki, dialoq və tərəfdaşlıq çərçivəsində Rusiya sülhməramlıları məhz 3 tərəfli sazişdən sonra Qarabağda öz fəaliyyətlərini sülh yaratmaq missiyası çərçivəsində həyata keçirib, missiyalarını bitirib geri dönəcəklər.

Sülh yarandıqdan sonra artıq sülhməramlılara da ehtiyac olmayacaq. Əgər regionda sülh varsa, erməniəsilli vətəndaşlar azərbaycanlılarla birgə Azərbaycan Respublikasının Konstitutsiyasına hörmət edərək, sülh və firavan yaşayacaqlarsa, sülhməramlılara da ehtiyac olmayacaq. Qaldı ki, sülhməramlıların Xocalıda parad keçirməsinə münasibətimə, sözün açığı, bu barədə heç bir rəsmi məlumat eşitməmişəm. Bu barədə yalnız sosial şəbəkələrdə məlumat yayılıb. O səbəbdən də yaxşı olardı ki, rəsmi məlumat dərc olunsun və biz də bu barədə hansısa bir fikir bildirək.

***Sual: Siz Xankəndinin deputatısınız. Ora səfər etməyi planlaşdırırsınız. Bir müddət əvvəl informasiyaya yayıldı ki, Tural Gəncəliyev Xankəndidə ofis açacaq, bu da ermənilər tərəfindən xeyli səs-küyə səbəb olmuşdu...***

**Cavab:** Biz həqiqətən öz torpaqlarımıza geri qayıtmağa hazırlaşırıq və bu yaxın vaxtlarda, şübhəsiz ki, baş tutacaq. Təbii ki, geri qayıtmaq öncəsi hər bir insan kimi mən də Xankəndi millət vəkili olaraq, gələcəkdə doğma şəhərimdə yaşayacam. Harada işləyəcəyəm, harada iş yerim olacaq, ofisim harada fəaliyyət göstərəcəksə bununla bağlı araşdırma aparıram. Bu da təbii məsələdir. Sözün əsl mənasında, biz buna inanırıq və əminik ki, bu belə olacaq. Mən Xankəndi şəhərini təmsil edirəm.

Gələcək fəaliyyətimi də orada görürəm. Ona görə də indidən müvafiq olaraq, araşdırmalar aparmışam. Bilirik ki, biz harada fəaliyyət göstərəcəyik. Paylaşımlarımıza xüsusilə də kəskin və məntiqsiz reaksiyaların Ermənistan tərəfindən gəlməsini başa düşmürəm. Azərbaycan Respublikasının suveren ərazisi var. Azərbaycan vətəndaşı ölkənin istənilən şəhərində, qəsəbəsində, xüsusən də millət vəkili olaraq yaşamaq və işləmək, orada fəaliyyət göstərmək üçün öz arzusunu reallaşdıra bilər. Ona görə də bu erməni tərəfinin hələ də reallıqlarla barışa bilməməsinin təzahürüdür. Yaxın gələcək bizim nə qədər doğru yolda olduğumuzu bir daha təsdiqləyəcək.

> *Əgər regionda sülh varsa, erməniəsilli vətəndaşlar azərbaycanlılarla birgə Azərbaycan Respublikasının Konstitutsiyasına hörmət edərək, sülh və firavan yaşayacaqlarsa, sülhməramlılara da ehtiyac olmayacaq*

✍ **Tünzalə İsmayılova**

## Nostalji

***"Həftə içi"nə növbəti müsahibəsində tanınmış ictimai xadim, sovet dövründə Qax və Xızı rayon partiya komitələrinin 1-ci katibi işləmiş Azərbaycan parlamentinin sabiq deputatı Maksim Musayev o illərdə Beynəlxalq Zəhmətkeşlər Günü kimi qeyd edilən 1 May bayramının keçirilməsi barədə xatirələrindən danışıb.***

# "1 Mayda Heydər Əliyevdən iki dəfə təbrik almışam..."



**Maksim Musayev,**
Azərbaycan parlamentinin sabiq deputatı

*Qaxdakı 1 May tədbirlərinə Bəxtiyar Vahabzadəni, Şirməmməd Hüseynovu, Fərman Kərimzadəni, Məmməd Arifi və başqalarını dəvət edirdik...*

*1988-ci ildən Əbdürrəhman Vəzirovun dövründən, Qarabağ münaqişəsi, mitinqlər başlanandan sonra 1 May keçirmək ənənəsinə də son qoyuldu...*

*Hamı bu bayrama, sadəcə, yeyib-içərək sərxoş olub şənlənmək bəhanəsi kimi baxırdı...*

***- Maksim müəllim, siz sovet dövründə uzun illər rayon və respublika rəhbərliyində müxtəlif vəzifələrdə çalışmısız. Həmin dövrün ən məşhur bayramı olan 1 May - Beynəlxalq Zəhmətkeşlər Gününün qeyd edilməsi barədə nələri xatırlayırsınız?***

- Yadımdadır ki, 1960-cı ilədək 1 May bayramı, ümumiyyətlə keçmiş SSRİ miqyasında yüngülvari tədbirlərlə, məsələn, rayonlarda, kolxozlarda, sadəcə, iclaslar keçirilməsinə üstünlük verilirdi. O dövrdə Ermənistanda bir neçə rayonun 1-ci katibi olmuş atam Talıb Musayev də partiya komitəsinin 1 Mayla bağlı yığıncaqlarını keçirirdi.

60-cı illərdən sonra Moskvada qərar verildi ki, 1 May bir az təntənəli formada keçirilsin. O illərdə mən Leninqradda Kənd Təsərrüfatı İnstitutunda təhsil alırdım. Bizi aprelin sonu mayın əvvəllərində təcrübə keçmək üçün müxtəlif vilayətlərə, şəhərlərə göndərirdilər. Yadımdadır ki, Pskov, Oryol vilayətlərində 1 May tədbirləri keçirmişik.

O zaman həmin gün rayon rəhbərliyi rayon mərkəzinə yığışırdı. Rəhbər şəxslərdən biri bu bayram haqda qısa bir çıxış edir, sonda isə deyirdi: "Gedin şənlik edin, sizə uğurlar diləyirik". Həmin iclasadək dükanlarda spirtli içki satılmırdı. İclasdan sonra isə maşınlarda yeşik-yeşik araq, pivə və s. gətirib satırdılar. Adamlar da həmin içkilərdən alıb yeyib-içməyə gedirdi.

1 May bayramının mənfi xüsusiyyəti də insanların alkoqollu içkilərə meylini daha da artırması idi. Hamı bu bayrama, sadəcə, yeyib-içərək sərxoş olub şənlənmək bəhanəsi kimi baxırdı. Məsələn, Pskov vilayətində keçirdiyimiz 1 May bayramlarından biri yaxşı yadımda qalıb.

O zaman Triqorsk rayonunun İvanovka kəndində idik. Orada bizi bir ailənin evində yerləşdirmişdilər.

Rayon mərkəzindəki tədbirə piyada gedib qayıtdıq. Qaldığımız evin sahibi olan Vasili adlı rus kişi ilə bərabər kəndə girəndə həmkəndliləri ona irad tutdular ki, Vaska, necə yəni, sən May bayramından gəlirsən, amma ləngərləmirsən, yəni sərxoş deyilsən. O da evinə çatan kimi gedib həyətindəki çəlləkdə pivə düzəltmişdi, ondan götürüb içdi və sərxoş olub elə yerdə uzanıb yatdı...

***- Bəs 1 Mayın parad formasında keçirilməsinə nə vaxtdan başlandı?***

- 1960-cı illərin sonu 1970-ci illərin əvvəllərində Kremldən qərar verildi ki, hər rayonun, şəhərin, kəndin, yaxud müəssisənin rəhbərləri bir iclaz zalına yığışaraq öz müvəffəqiyyətləri, sovet dövlətinin uğurları və s. haqda danışsınlar, dövləti, yerli rəhbərliyi tərifləsinlər, bununla da məsələ bitsin. Sonra da deyirdilər ki, gedin şənlik keçirməyə. Camaat gedirdi, kafelərdə, yaxud kənd yerlərində bulaq başında yeyib-içib 1 Mayı qeyd edirdi...

1970-ci illərin axırında isə 1 May bayramında respublika paytaxtları, şəhər və rayon mərkəzlərində parad keçirməyə qərar verildi. Paradlarda yalnız və yalnız əməkdə fərqlənən fəhlə və kolxozçular, sağıçılar, pambıqçılar, mexanizatorlar, ustalar və b. iştirak etməliydi. 1982-ci ildən isə Kremldən respublika, rayon və şəhər rəhbərlikləri meydanlarda parad qəbul etmələri haqda göstəriş gəldi. Tribunada 1-ci katib, büro üzvləri və rayonun qabaqcıl əməkçiləri dayanmalı, meydandan isə bəzəkli şüar və transparantlarla müəssisə, idarə, kolxoz, zavod və s. kollektivləri, eləcə də tələbə və şagirdlər keçməli və "Yaşasın SSRİ", "Kommunist Partiyasına eşq olsun!" və s. şüarlar qışqırmalı idilər.

***- Siz Qax rayonunun 1-ci katibi olarkən keçirdiyiniz paradlar necə yadınızda qalıb?***

- Dediyim kimi, paradı biz - rəhbərlik, büro üzvləri tribunada dayanıb qəbul edirdik, çıxışlar edirdik. Meydandan da əsasən kolxoz, sovxoz kollektivləri bəzənmiş yük maşınlarının üzərində orden-medallı əməkçilər keçirdi. Bəzi rayonlarda 1 May paradı daha təntənəli keçirilirdi.

Mən Qaxda maşınları daha çox bəzəməyə icazə vermirdim. Deyirdim ki, hamı eyni, sadə bir formada keçsin. Bəzən kolxoz və müəssisə rəhbərləri bir-birləri ilə bəhsə girərək, bəzək-düzəyə külli miqdarda pul xərcləyirdilər. Bahalı xalçalar alınır, uzun-uzun şüarlar yazılırdı. O da xatirimdədir ki, Qaxdakı 1 May tədbirlərinə bir neçə dəfə ustad şair Bəxtiyar Vahabzadəni, tədqiqatçı alim Şirməmməd Hüseynovu, yazıçı Fərman Kərimzadəni, tanınmış tənqidçi Məmməd Arifi də dəvət etmişdim...

Həmişə 1 May olanda respublika rəhbərləri rayon 1-ci katiblərinə təbrik məktubu göndərirdi. Məsələn, yadımdadır ki, Heydər Əliyev Azərbaycanın 1-ci katibi olanda rayon rəhbəri kimi mənə iki dəfə 1 May təbriki yollamışdı.

Ondan sonra Kamran Bağırov təbrik məktubları göndərirdi. Biz də öz növbəmizdə rayonun qabaqcıl müəssisə rəhbərlərinə təbrik teleqramları vururduq. 1988-ci ildən Əbdürrəhman Vəzirovun dövründən, Qarabağ münaqişəsi, mitinqlər başlanandan sonra 1 May keçirmək ənənəsinə də son qoyuldu...

***- Maksim müəllim, bildiyiniz kimi, 1992-ci ildə, artıq müstəqil Azərbaycan dövlətinin qərarı ilə 1 May bayramı rəsmən ləğv edildi. Bəs sonrakı illərdə keçmiş kommunistlər, Sosialist Əməyi Qəhrəmanları həmin bayramın bərpası üçün təşəbbüs göstərmirdilər ki?***

- Xeyr. Belə bir şey yadımda deyil. Hesab edirəm ki, nə vaxtsa respublika rəhbərliyi məsləhət görərsə, bu məsələni xalqın, elmi ictimaiyyətin müzakirəsinə çıxarmaq olar. Yəni hər hansı bir bayramın mənası olması üçün həmin tədbir xalqın, insanların ürəyindən olmalıdır. Yoxsa elə sovet dövründəki kimi rəhbərliyinin göstərişi ilə zorla hansısa bayramı xalqa sırımaq doğru deyil...

***✍ Sultan Laçın***

# 1 May bayramı...



***Həmrəylik günü kimi 1 may bayramı dövrümüzdə Çikaqoda baş verən hadisələrlə bağlıdır. 1886-cı il may 1-də Çikaqo fəhlələri dinc aksiya keçirərək iş saatlarının gündəlik 15 saatdan 8 saata azaldılmasını tələb ediblər. Polis etirazçılara qarşı güc tətbiq etməsi azmış kimi kənardan kimsə təxribat edərək qrupa əl bombası atıb. Nəticədə nümayişlərdə insanlar həlak oldu, bəzi iştirakçılar isə günahları sübut olunmamış terrorda ittiham olundular.***

1 May tarixinin Beynəlxalq Zəhmətkeşlər Bayramı kimi anılması qərarı ilk dəfə II İnternasionalın 1889-cu ilin iyulunda keçirilən Paris Konqresində verilib. 1890-cı ildə ABŞ, Almaniya, Fransa, Belçika, Danimarka, İspaniya və bəzi digər ölkələrin işçiləri ilk dəfə olaraq mayın 1-ni qeyd etdilər.

XX əsrin əvvəllərində Avropada ən fəal kommunist hərəkatı üzvlərindən biri olan Roza Lüksemburq (Almaniya) 1894-cü ilin fevralında Parisdə dərc olunmuş "May bayramı necə yarandı?" adlı tarixi məqaləsində yazırdı: "Azad düşüncə - 8 saatlıq iş gününün nailiyyəti üçün vasitə kimi bir proletar bayram günü tətbiq etmək ilk dəfə Avstraliyada ortaya çıxdı". Sovet İttifaqında bu bayram dünyada ən möhtəşəm səviyyədə keçirilirdi. Bayramdan bir neçə gün öncə bütün ölkə boyu - idarə, müəssisə və təşkilatlarda, məktəblərdə böyük çoşqu ilə hazırlıq gedirdi. Mayın 1-də şəhərlərdə böyük nümayişlər keçirilər, möhtəşəm bayram əfval-ruhiyyəsi hökm sürərdi. Peşəsində fərqlənən əməkçilərə mükafatlar, fəxri adlar verilər, Sovet İttifaqının paytaxtına - Moskvaya dünyanın bütün ölkələrindən dəvət olunan qonaqlara sosializmin nəyə qadir olduğu nümayiş etdirilərdi.

1920-ci ildən başlayaraq, 1 may Azərbaycanda da rəsmi bayram günü kimi qeyd olunub. SSRİ tərkibində olanda 1 May bayramı rəsmi bayram sırasında ən yüksək səviyyədə qeyd olunar və bununla bağlı keçirilən tədbirlərdə, televiziya və mətbuatda insanlara əməyin, zəhmətin nə qədər vacib olduğu aşılanardı. 1992-ci ildə isə bu bayramı totalitar quruluşun ideoloji atributu kimi ləğv edildi. Həmin ilin oktyabrında müstəqil Azərbaycanın bayramları haqqında qanun qəbul edilərkən 1 May xeyli dərəcədə ideolojiləşmiş bayram kimi o sıraya daxil edilmədi.

1 may bəzi ölkələrdə adi gün kimi qeyd olunur, bəzi ölkələrdə isə dövlət səviyyəsində bayramdır. Bir neçə Avropa ölkəsində bu gün bayram və bahar bayramının başlanğıcı kimi də qeyd olunur. Məsələn İngiltərədə Mayın 1-i istirahət günü olsa da, həmkarlar ittifaqları ənənəvi olaraq bu günü qeyd edir. Birləşmiş Krallıqda küçə nümayişləri, paradlar keçirilir. Almaniyada bu gün radikallarla polis arasında toqquşmalarla yadda qalır.

Türkiyədə Beynəlxalq Əmək Günü İstanbul da daxil olmaqla bir sıra iri şəhərlərdə qeyd olunur. Qeyd edək ki, uzun illərdir Türkiyədə mayın 1-də bəzi sosialist təmayüllü siyasi partiyaların təşkil etdikləri yürüş-mitinqlər müəyyən təxribatlarla yadda qalır. Yanğınlar törədilir, nəqliyyat vasitələrinə, dövlət və əhaliyə qarşı zor tətbiq olunur. Son illərdə hökumət bu problemlərdən qurtarmaq üçün rəsmi olaraq mayın 1-nin Əmək və Həmrəylik Günü kimi qeyd olunmasına icazə verib.

***✍ Azad***

# Ermənistanın hərbi cinayətlərini beynəlxalq komissiya araşdıracaq

***Qarabağda hərbi cinayətlərin araşdırılması üçün iki ölkə - Azərbaycan və Türkiyə arasında birgə komissiya yaradılıb. Bunu Trend-ə açıqlamasında Türkiyənin Azərbaycandakı sabiq səfiri Hulusi Kılıç deyib. O qeyd erdib ki, yaradılan komissiyada 30-dan çox ölkənin nümayəndəsi iştirak edir və yaxın günlərdə araşdırmalara start veriləcək:***



"Komissiya Azərbaycan Ekologiya və Təbii Sərvətlər nazirinin müavini Firdovsi Əliyevin təklifi, Dünya Türk Yazarlar Birliyi başqanı Salih Kurt və İslam Ölkələri Alimlər Birliyinin baş direktoru, professor Bayram Altanın təşəbbüsü ilə yaradılıb. Burada 30 ölkədən nümayəndlər var ki, mən də həmin şəxslərdən biriyəm. Komissiyanın məqsədi 44 günlük Vətən müharibəsi dövründə işğalçı ermənilərin qardaş Azərbaycan xalqına qarşı törətdiyi hərbi cinayətlərin araşdırılmasıdır.

Bildiyimiz kimi müharibə dövründə erməni silahlı qüvvələri Gəncə və Bərdəyə istifadəsi qadağan olunan raketlər atıb, mülki əhaliyə qarşı qətliam həyata keçiriblər. Araşdırımalarımız məhz bu yöndə olacaq. Məqsədimiz Ermənistanın faşizm siyasətini bütün dünyaya göstərməkdir". Hulusi Kılıç əlavə edib ki, komissiyanın fəaliyyətində həmçinin elm adamları və din xadimlərinin də iştirakı nəzərdə tutulub: "Onlar Qarabağ bölgəsində məscidlərə və abidələrə dəymiş ziyanı araşdıracaqlar".



**■ "Cənubi Kiprə inanmıram, güvənmirəm, onlar heç vaxt dürüst olmayıblar". Türkiyə Prezidenti Rəcəb Tayyib Ərdoğan bunu cümə namazından sonra jurnalistlərə verdiyi açıqlamasında deyib.**

Bir neçə gün əvvəl Cenevrədə Kiprlə bağlı 5+1 formatında keçirilən görüşdən danışan Ərdoğan əlavə edib ki, 3 ay sonra keçiriləcək toplantıdan hansısa nəticə gözləmir: "Çünki dürüst deyillər, yalan danışdılar, aldadırlar, keçirilən referenduma da hörmət etmədilər. İndi yenə eyni davranışı göstərirlər. Dürüst davranacaqları təqdirdə, bizdən də dürüstlük görəcəklər. Əks halda, razılığa gələ bilmərik". Qeyd edək ki, 27-29 aprel tarixlərində Cenevrədə Kiprlə bağlı 5+1 formatında görüş keçirilib. Toplantıda tərəflər razılığa gələ bilməyiblər.



**■ İsrailin Baş naziri Binyamin Netanyahu Meron dağı bölgəsində baş vermiş facié ilə əlaqədar mayın 2-sini matəm günü elan edib. Bu barədə o, videomüraciətində bildirib.**

Qeyd edək ki, İsrailin şimalındakı Safed şəhərinin yaxınlığında yerləşən Meron dağı bölgəsində Laq ba-Omer bayramı zamanı tribunanın çökməsi nəticəsində azı 44 nəfər ölüb, 150 nəfər yaralanıb. Xatırladaq ki, Azərbaycan XİN də faciə ilə əlaqədar İsrailə başsağlığı verib. XİN-in rəsmi "Twitter" səhifəsində yerləşdirilən başsağlığında deyilir: "Meron dağında baş vermiş faciəvi hadisə bizi çox kədərləndirdi. Dəhşətli hadisədə həlak olanların ailələrinə, eləcə də İsrail hökumətinə və xalqına dərin hüznlə başsağlığı veririk. Yaralıların tezliklə sağalmasını arzu edirik".



**■ "Moskva Kiyevdən Rusiya və Ukrayna prezidentləri Vladimir Putin və Vladimir Zelenskinin mümkün danışıqları ilə bağlı konkret təkliflər gözləyir. Hələlik, heç bir təklif yoxdur". Bunu Kremlin mətbuat katibi Dmitri Peskov bildirib.**

"Təəssüf ki, hələ də bu məsələ ilə bağlı heç bir konkretliyi bölüşə bilmirəm. Yəqin ki, işgüzar və ya rəsmi qaydada bizə konkret təkliflər verilməlidir. Hələlik heç nə yoxdur, nə gündəlik, nə də heç nə ilə bağlı... Məsələ ondadır ki, Prezident Zelenskinin fərdi şəkildə qərarlar verir, lakin bizim də müəyyən prosedurlarımız var", - deyə Krmelin sözçüsü vurğulayıb. Qeyd edək ki, Zelenski İtalyanın "La Repubblica" qəzetinə müsahibəsində Vatikanın Rusiya ilə Donbass nizamlanması ilə bağlı danışıqların keçirilməsi üçün optimal yer olduğunu söyləyib.



**■ Bakıda qanunsuz ağac kəsilməsi ilə bağlı daha bir cinayət işi başlanıb.**

Baş Prokurorluğun Mətbuat xidmətindən hafta.az-a verilən məlumata görə, Yasamal rayonu, Abbas Mirzə Şərifzadə küçəsi 150 ünvanında ağacların qanunsuz kəsilməsi ilə bağlı Bakı Şəhər İcra Hakimiyyətinin Yaşıllaşdırma Təsərrüfatı Birliyinin müraciəti üzrə Baş Prokurorluğun Cinayət təqibindən kənar icraatlar idarəsində araşdırma aparılıb. Aparılmış araşdırmalarla, qeyd edilən ünvanda yerləşən "Hüseyn Dent" stomotoloji klinikasının direktoru Hüseyn Abdullayev tərəfindən klinikanın həyətində olan, meşə fonduna daxil olmayan ağacların qanunsuz kəsilməsi nəticəsində dövlətin qanunla qorunan mənafelərinə ümumilikdə 3 min manat məbləğində ziyan vurulmasına əsaslı şübhələr müəyyən edilib.



**■ Azərbaycan Respublikasında koronavirus (COVID-19) infeksiyasına 1 196 yeni yoluxma faktı qeydə alınıb, 2 162 nəfər müalicə olunaraq sağalıb.**

Nazirlər Kabineti yanında Operativ Qərargahdan hafta.az-a verilən məlumata görə, COVID-19 üçün götürülən analiz nümunələri müsbət çıxmış 27 nəfər vəfat edib.

İndiyədək ölkədə ümumilikdə 319 109 nəfərin koronavirus infeksiyasına yoluxması faktı müəyyən edilib, onlardan 289 460 nəfər müalicə olunaraq sağalıb, 4 517 nəfər vəfat edib, aktiv xəstə sayı 25132 nəfərdir. Son sutka ərzində yeni yoluxma hallarının müəyyənləşdirilməsi ilə əlaqədar 11 319, ötən müddət ərzində isə ümumilikdə 3 241 186 test aparılıb.




**■ 2020-ci ildə "Gazprom" şirkətinin xalis mənfəəti təxminən 90 faiz azalıb. Hafta.az xəbər verir ki, "Gazprom" bunu qiymətlərin enməsi ilə izah edir. Ötən il "Gazprom"un xalis mənfəəti 135,3 milyard rubla (1,82 milyard dollar) düşüb.**

Şirkətin Avropaya təbii qaz satış həcmində 6 faiz və ya 13,4 milyard kubmetr azalma olub. "Gazprom" 2020-ci ildə Avropaya 219 milyard kubmetr, 2019-cu ildə isə 232,4 milyard kubmetr təbii qaz satıb. Daxili qaz satışları da 236 milyard kubmetrdən 225 milyard kubmetrə enib. 2019-cu ildə 507 milyard kubmetr olan "Gazprom" ümumi qaz satışı ötən il 475 milyard kubmetrə düşüb.

# Qayınana-gəlin çəkişməsi

## Layihə

***Məlum olduğu kimi, bu yaxınlarda sosial şəbəkələrdə Lənkəranın Yuxarı Nüvədi kəndində 75 yaşlı qayınananın gəlinini döyməsi ilə bağlı görüntülər yayıldı və bu hadisə cəmiyyətdə ciddi rezonans doğurdu. Kimi qayınananı, kimi gəlini, kimisi də videonu çəkən şəxsi günahlandırdı. Düzdür, zorakılığa məruz qalan gəlin qayınanadan şikayətçi olmasa da, görünən odur ki, günümüzdə bəzi ailələrdə qayınana-gəlin çəkişməsi davam etməkdədir. Bəzi mütəxəssislər hesab edirlər ki, gəlin-qayınana problemi, artıq bir klassikaya çevrilib və tərəflər arasında yaranan bu anlaşılmazlığın əsasında dərin, psixoloji və irsi komplekslər dayanır.***



## Əsrlərdir davam edən bu "müharibə" niyə bitmir?

Bu dərin komplekslər ananın oğula, oğulun anaya ifrat dərəcədə bağlı olmasından yaranır. Reallıq budur ki, qayınana gəlinə nə qədər təzyiq göstərirsə, gəlin də bir o qədər ona qarşı aqressivləşir, qayınanası ilə bir evdə yaşamaq istəmir, ailədə söz-söhbət artır və nəticədə ya boşanmaya, ya da zorakılıq hallarına gətirib çıxarır.

Əslində, bu məsələdə tamamilə qayınanaları günahkar hesab etmək də doğru sayılmır. Mütəxəssislər hesab edirlər ki, gəlinlər qayınanalarını, qayınanalar gəlinlərini yaxşı tanısalar, yola getmək bir o qədər çətin olmayacaq. Sadəcə, həm gəlinlər, həm də qayınanalar öz eqolarını kənara qoyub ortaq dil tapmağa çalışmalıdırlar. Bu zaman gəlinlər qayınanalardan, qayınanalar da gəlinlərdən tam razı qalacaqlar.

Ekspertlər onu da tövsiyyə edirlər ki, əslində qayınananı günahlandırmaq və dalınca danışmaq əvəzinə gəlinlər onları başa düşməyə, tanımağa çalışsalar, həyatları daha rahat olar. Psixoloji araşdırmalara görə, qayınanaların 8 tipi var və gəlinlərin bu haqda bilməsi münasibətlərdə harmoniyanın yaranmasına müsbət təsir edəcək. Bunlardan biri şikayətçi qayınanadır. Bu tiplər gəlin hər nə etsə də, qayınana narazı olur, gəlinin hər hərəkətinə görə şikayətlənir.

İdarə edən qayınana tipi isə ailəsində bütün problemləri özü həll etməyə adət edib. Belə qadın gəlin gəlməmişdən əvvəl evini hər zaman ideal təmiz saxlayıb, ailəsinin peşəkar aşbazı olub, ailənin bütün qayğılarını çəkib. Belə qayınana ilə bir evdə yola getmək üçün yalnız onun dedikləri ilə hesablaşmaq lazımdır. Gəlin onunla yaşayaraq müstəqil qərar verə bilməyəcək. Əgər gəlin sərbəstliyi sevən, üsyankar xasiyyətlidirsə, belə qayınana ilə yola gedə bilməyəcək.

Günahlandıran qayınana tipi isə hər zaman öz oğluna xatırladır ki, onu öz sağlamlığı bahasına dünyaya gətirib və böyüdüb. O, hər zaman gileylənir. Özünə daha çox diqqət və qayğı istəyir. Əksər hallarda onlar özləri gəlinlə münaqişə yaradır.

Eqoist qayınanaların isə həyatda yeganə sevinci sevimli oğludur. O, gəlini daxilən qəbul etmir. Çünki onun üçün etalon - o, özüdür. Bu tip qayınana ilə yola getmək çox çətindir. O, oğlunun qarşısında sizi pis vəziyyətdə görmək üçün hər bir şeyə əl atar.



**Narınc Rüstəmova,**
psixoloq

Özünü qurban verən qayınana tip isə özlərini oğluna görə qurban verirlər. Beləleri yaxşı qayınana və uşaqcanlı nənələr olur. Gəlinini qızı kimi qəbul edir. O, gəlinə oğlunun müstəqil və ayrı yaşamasına yol verməyəcək. Hər zaman məsləhətlər verməyə çalışacaq.

Nazlı qayınana tipi özlərini ərköyün balaca uşaq kimi aparan qayınanalar hesab edilir. Onlar çox qısqanc olur, oğlunun ona qarşı olan diqqətsizliyindən şikayətlənirlər. Belə tip qayınanaların yalnız oğlunun sevgisinə və qayğısına ehtiyacı var. İdeal qayınana tipi isə bu ana, əgər onun övladı xoşbəxtdirsə, o, da xoşbəxtdir. Gəlin onun sözünə, köməyinə güvənə bilər. Bu tip qayınanalar, oğlu həyat yoldaşı ilə mübahisə edibsə, mütləq gəlinin tərəfini tutacaq. Günahı isə oğlunda və öz tərbiyəsində görəcək. Bu cür ideal qayınanalar özünə qarşı olan cüzi diqqətə görə də ürəkdən sevinir. Təbii ki, belə qayınanaların sayı elə də çox deyil.

Xeyirxah qayınanalar isə adətən özləri vaxtı ilə qayınanalarından pis münasibət gö-

*"Belə münasibətlər daha çox gəlin-qayınana bir yerdə olan ailələrdə yaşanır. Elə ailələr də var ki, burada qayınana hər işi öz üzərinə götürür*

rənlərdir. Bu səbəbdən də gəlinin də o əziyyəti çəkməsini istəmirlər. Onlar hər bir vəziyyətdə gəlinə kömək etməyə hazırdılar.

Bunu da unutmaq olmaz ki, bu münasibətlər sadəcə gəlin və qayınana ilə bağlı bir münasibət deyil. Qayınana və gəlin arasında münasibətlərin pozulması bütöv bir ailənin çalxalanması deməkdir. Düzdür, bu prosesdə ən çox qarşıdurmanın baş qəhrəmanları, yəni gəlin və qayınana daha çox zərər görəcəklər. Həm psixoloji mənada, həm də ailə münasibətləri mənasında çətinliklər yaşayacaqlar. Bu "toqquşmadan" əsas təsirlənən həm də kişilər və uşaqlar olacaq. Kişi həm gəlinin, həm qayınananın bölüşməkdə çətinlik çəkdiyi nəfərdir. Tarazlığını itirmədən tarazlığı təmin etmək məcburiyyətindədir. Bir tərəfdən anası, digər tərəfdən xanımı.Yeni bir tərəfdə məsuliyyətini aldığı, həyatı bölüşmək kimi söz verdiyi həyat yoldaşı, digər tərəfdə haqqını heç vaxt ödəməyəcəyi anası var. Kişi dəyər verdiyi bu iki insanın sıxıntısını yaşayır, hər ikisini də itirmək istəməz. Tərəfləri qane etməyə verdiyi emosional çıxarlar səbəbiylə qəzəb partlayışları və ya psixoloji problemlər yaşaya bilər. Onun da başa düşülməyə ehtiyacı var, yeganə həll nöqtəsi olaraq görülməməlidir. Eyni zamanda, nə ana, nə də gəlin onu seçim qarşısında qoymamalıdır.

Ailənin kiçik üzvləri sayılan uşaqlar isə böyüklərdən fərqli olaraq anası və nənəsi arasında baş verən qarşıdurmanın səbəblərini anlamaqda çətinlik yaşayırlar. Nənələrinin və analarının nəyi bölüşə bilmədiklərini bilməzlər. Bəzən analarına bəzən də nənələrinə hirslənərlər. Necə davranmaları lazım olduğuna qərar verməyə bilirlər. Bəzən sevgidoludurlar, amma bəzən duyduqları bezi ifadələr ucbatından qəzəbdolu olurlar.

"Sevsək, yoxsa hirslənsək?", "Münasibəti kəssək, yoxsa davam etsək?" kimi toqquşmalar yaşayırlar. Bəzən iki tərəfi idarə etmək məcburiyyətində qalmaq və ya bir yaxşı və bir pis olmaq uşaqlarda şəxsiyyət problemləri yarada bilər. Bu səbəbdən uşaqlara bu prosesin əks olunacağı düşünülməli və onlardan istifadə edilməməlidir. Yəni, uşağa ana tərəfindən nənə, nənə tərəfindən də anası şikayət edilməməlidir. Yaşanılanların uşağın şəxsiyyətini təsir göstərəcəyini unudulmamalıdır və çalışmaq lazımdır ki, uşaqlar söz-söhbətlərdən uzaq tutulsun.

Azərbaycan Respublikasının Medianın İnkişafı Agentliyi

Gender, ailə və demoqrafiya məsələlərinin işıqlandırılması

### Yeri gəlmişkən...

**■ Məsələyə münasibət bildirən psixoloq Narınc Rüstəmova deyir ki, cəmiyyətdə üçüncü şəxsin müdaxiləsi olan ailə tipləri mövcuddur: "Bu ailə tipində əsas rolu qayınanalar oynayır. Gəlin-qayınana münasibətlərinə gəldikdə isə ya qayınana gəlini pisləyir, ya da gəlin qayınananı. Ortaq nöqtə tapmaq çox çətin olur.**

Belə hallarda qayınana fikirləşir ki, oğlunu bu yaşa kimi böyüdüb və birdən digər bir qadının onun oğluna sahiblənməsi qayınanada müəyyən qıcıq yaradır. Bu zaman oğlunu paylaşa bilməmək düşüncəsi meydana çıxır. Belə münasibətlər daha çox gəlin-qayınana bir yerdə olan ailələrdə yaşanır. Elə ailələr də var ki, burada qayınana hər işi öz üzərinə götürür.

Gəlinin edəcəyi işləri də görür. Bu halda da münaqişələr meydana çıxır. Gəlin deyir ki, sənin anan mənim işimə qarışır, yaxud da gəlində tənbəllik yaranır və nəticədə problemlər baş qaldırır. Gəlinlər qayınanalarının tiplərini bilməlidir. Məsələn, idarəedən qayınanalar istəyir ki, hər şeyi öz üzərinə götürsün. Bu qayınanalarla yola getmək asandır. Belə qadınlar xoşlayırlar ki, gəlinləri hər zaman onlarla məsləhətləşsin və o da öz böyüklüyünü hiss etsin.

Əgər gəlin bu qayınanalarla məsləhətləşirsə, onun fikirlərini öyrənirsə bu vaxt qayınananın gəlinə münasibəti çox yaxşı olur. Belə hallarda konfliktlər də azalır. İkinci tip araqarışdıran qayınanalardır ki, onlar bir az təhlükəli olur. Onlarla yaxşı davransan da pis başa düşəcəklər, pis davransan da. Sadəcə onlarla münasibətdə az olmaq lazımdır. Bu vaxt sakit durmaq yaxşı effekt verir. Belə tiplər «mən», «mən» sözünü qətiyyən sevmirlər".

✍ **Sevinc**

*Azərbaycan Respublikasının Medianın İnkişafı Agentliyinin maliyyə dəstəyi əsasında hazırlanıb.*

## XƏBƏRİNİZ OLSUN...



■ Azərbaycanda inflyasiyanın səviyyəsi 2021-ci ildə hədəf diapazonunda qalacaq. Bu barədə Azərbaycan Mərkəzi Bankının sədri Elman Rüstəmov deyib. Onun sözlərinə görə, bir qədər dəyişən proqnoz horizontunun dəyişməsinə baxmayaraq, marta illik inflyasiya 4,1% təşkil edib və inflyasiyanı hədəf diapazonundan kənarlaşdıra biləcək amillər müşahidə edilmir.

■ "YAŞAT" Fondunun və İcbari Tibbi Sığorta üzrə Dövlət Agentliyinin birgə dəstəyi ilə qazilərimiz Novruz Hüseynovun, Rəsul Şabanovun, Etibar Məmmədovun və Şükür Tağıyevin əməliyyat xərcləri qarşılanıb. Bu barədə hafta.az-a Fonddan bildirilib.

■ Rusiyanın "Heyvanların Sağlamlığının Mühafizəsi Federal Mərkəzi" heyvanlar üçün koronavirusa qarşı vaksin istehsal edib. İlk vaksin partiyası 17 min doza təşkil edib. Qeyd olunur ki, "Karnivak-Kov" vaksini ilkin olaraq ayda 3 milon doza həcmində buraxılacaq. Bu, dünyada heyvanlar üçün qeydiyyata alınan ilk koronavirus vaksinidir.



■ Azay Quliyev Azərbaycan Respublikasının Qeyri-Hökumət Təşkilatlarına Dövlət Dəstəyi Agentliyinin Müşahidə Şurasının sədri seçilib. Bu barədə hafta.az-a Azərbaycan Respublikasının Qeyri-Hökumət Təşkilatlarına Dövlət Dəstəyi Agentliyindən məlumat verilib. Məlumata görə, Azay Quliyev Agentliyin Müşahidə Şurasının sədri, Vüsal Quliyev isə sədr müavini seçilib.

■ Martda nəqliyyat sektorunda fəaliyyət göstərən müəssisələr və fiziki şəxslər tərəfindən 16,4 milyon ton yük daşınıb. Bu barədə hafta.az-a Dövlət Statistika Komitəsindən bildirilib. Xatırladaq ki, fevralda daşınan yüklərin həcmi 14,8 milyon ton olub.



■ Azərbaycanda koronavirus infeksiyasına yoluxmuş və yaşı 90-dan artıq olan 3 nəfər sağalıb. Bunu Azərbaycan Tibb Universitetinin müəllimi, cərrah Rauf Qasımov deyib. Həmin şəxslərin 92, 94 və 95 yaşı olub.

■ İpoteka və Kredit Zəmanət Fondunun (İKZF) xətti ilə verilən ipoteka kreditlərinin sayı və məbləği açıqlanıb. İKZF-dən hafta.az-a bildirilib ki, İpoteka və Kredit Zəmanət Fondunun xətti ilə indiyədək 33 min 355 ipoteka krediti verilib. Fondun vəsaitləri hesabına verilmiş ipoteka kreditləri üzrə məbləğ 1 milyard 772 milyon 590,6 min manatdan çoxdur.



**■ Aprelin 30-da Müdafiə naziri general-polkovnik Zakir Həsənov Türkiyə Respublikası Müdafiə Sənayesi Komitəsinin sədri cənab İsmail Demirin rəhbərlik etdiyi geniş tərkibli nümayəndə heyəti ilə görüşüb.**

Müdafiə Nazirliyindən hafta.az-a verilən məlumata görə, Türkiyə Müdafiə Sənayesi Komitəsi, "STM", "ROKETSAN", "HAVELSAN" şirkətlərinin və "ASELSAN-Bakı" ofisinin rəhbər heyətlərini salamlayan Müdafiə naziri ölkələrimiz arasında ikitərəfli hərbi və hərbi-texniki əməkdaşlığın yüksələn xətlə inkişaf etdiyini və bu əlaqələrin daha da genişlənməsində dövlət başçılarının dostluq və qardaşlıq münasibətlərinin böyük rol oynadığını qeyd edib. Görüşdə Azərbaycan-Türkiyə ikitərəfli hərbi-texniki əməkdaşlığının aktual məsələləri müzakirə edilərək müasir döyüş əməliyyatlarının aparılmasının yeni üsul və metodları, xüsusilə də Vətən müharibəsində əldə edilən döyüş təcrübəsi nəzərə alınmaqla iki ölkə arasında yeni birgə layihələrin həyata keçirilməsi yolları müəyyən edilib. Əminliklə bildirilib ki, əsas diqqət qoşunlarımızın texniki təchizatının daha da gücləndirilməsinə yönəldiləcək.



**■ ABŞ-ın Rusiyadakı səfirliyi xarici ölkə vətəndaşlarının işə götürülməsi ilə bağlı qadağa səbəbindən konsulluğun ştatını 75 faiz ixtisar edəcək. Bu barədə məlumat diplomatik nümayəndəliyin saytında yerləşdirilib.**

"Təəssüf edirik ki, Rusiya hökumətinin fəaliyyəti sayəsində konsulluğumuzun əməkdaşlarının sayını 75 faiz azaltmağa məcbur oluruq və ABŞ vətəndaşlarına mümkün qədər daha çox xidmət təklif etməyə çalışacağıq", - deyə məlumatda bildirilir.

Mayın 12-dən etibarən, həmçinin konsulluq xidmətlərinin sayı da azaldılacaq. Əsasən də diplomatik səfərlər üçün nəzərdə tutulmayan vizalara baxılması dayandırılacaq. Diplomatik nümayəndəlik personalın Moskvadan kənarda hərəkət imkanlarının məhdudluğu səbəbindən Rusiyadakı ABŞ vətəndaşlarına göstərilən təcili xidmətlərin gecikə biləcəyini də açıqlayıb. Bundan əlavə, vizasının vaxtı keçmiş ABŞ vətəndaşlarına əcnəbilər və vətəndaşlığı olmayan şəxslərin ölkədən deportasiya olunacağı iyunun 15-dək Rusiyanı tərk etmələri tövsiyə olunur.



**■ Gələn həftə Estoniyanın təşəbbüsü ilə 3 Baltikyanı ölkənin xarici işlər nazirləri Estoniya, Latviya və Litva daxilində sərbəst hərəkətin mümkünlüyünə dair müzakirə aparacaqlar. Bu barədə məlumatı Estoniyanın yerli mətbuatı yayıb.**

"Baltik kürəsi" (Baltikyanı ölkələr daxilində insanların sərbəst hərəkəti) ötənilki formada mövcud olmayacaq. Hərəkəti xeyli asanlaşdırmağa imkan verən fürsətlər olacaq. Tranzit, müxtəlif rəqəmsal sertifikatlar və sair. İstifadə edə biləcəyimiz imkanlar var", - deyə Estoniya Xarici İşlər Nazirliyinin vitse-kansleri Myart Volmer qeyd edib. "Latviya, Litva və Estoniyada vaksinasiyanın lazımi səviyyədə getdiyinə dair həm inam, həm əminlik olmalıdır. Eyni zamanda, insanların qaydalara əməl etdiklərinə, virusun bizdən uzaqlaşdığına əmin olub-olmamağımıza dair aspektlər olmalıdır.

Həddindən artıq çox şərt var", - deyə M.Volmer əlavə edib. Keçmiş xarici işlər naziri Urmas Reynsalu "Baltik kürəsi"nin yenidən yaradılmasının çox vacib olduğunu hesab edir: "Baltik kürəsi" Latviya və Litva ilə üçüncü ölkələrdən gələn şəxslər barədə razılığa gəldiyimiz halda qüvvəyə minə bilər. Bu halda Estoniya Latviya və Litvadan xeyli fərqlənir, çünki onlar insanlardan sərhəddə test müayinəsindən keçmələrini tələb edirlər. Hesab edirəm ki, etimad üçün ilkin zəminlərdən biri bu kimi şərtlərin Estoniyada tətbiqi ola bilər, amma bu addım hələlik atılmayıb".

## Böhran

# Orta Asiya qarışdı







***Postsovet məkanında hazırda bütün diqqət Mərkəzi Asiyanın iki dövləti - Qığızıstan və Tacikistan arasında yaşanan toqquşmalara yönəlib. Tacikistan sərhədçiləri ilə Qırğızıstan vətəndaşları arasında yaranmış qarşıdurmada ölənlərin sayı 20 nəfərə çatıb. Hər iki tərəfdən 150 nəfər xəsarət alıb. Qırğızıstan münaqişə bölgəsindən 13.5 min nəfər vətəndaşını evakuasiya edib.***

Qeyd edək ki, iki ölkə sərhədində yaşanan toqquşmaların əsas səbəbi SSRİ dövründən qalan ərazi mübahisələridir. Bölgənin ən bərəkətli torpaqlarının olduğu Fərqanə vadisi Özbəkistan, Tacikistan və Qırğızıstan arasıvnda bölüşdürülsə də, çoxsaylı anklavlar da mövcuddur.

Ərazinin qeyri-adi şəkildə bölgüsü bir dövlətin sərhədləri daxilində elə bir əhəmiyyət daşımırdı. Üç müstəqil dövlət yarandıqdan sonra bu illər ərzində sərhədlərin tez-tez bağlanması bu anklavlarda yaşayan etnik xalqlar üçün ciddi çətinliklər yaradır. Buraya su təminatı, humanitar yüklərin daşınması, nəqliyyat təcridi, tibbi xidmətlərin əlçatan olmaması, ailələrdən ayrı düşmə və s. kimi problemlər daxildir. Ən çox qarşıdurma da məhz Tacikistanla Qırğızıstan ərazisində yaşanmaqdadır. Gərginliklərin əsas mərkəzi isə su mənbələri, əkinəyararlı torpaq sahələrinin yerləşdiyi ərazilərdir.

Yerli sakinlərin sözlərinə görə, ay ərzində tərəflər arasında bu cür qarşıdurmalar bir neçə dəfə təkrarlanır. Bir-birlərinə daş atmaqla yekunlaşan bu qarşıdurmalara bəzən hərbçilər də müdaxilə edirlər. İndiki qarşıdurmada minaatanlardan istifadə də qeyri-adi hal kimi qarşılanmır. Analoji vəziyyət 2019-cu ilin payızında da yaşanıb.

Bəs görəsən, budəfəki gərginliyin bu həddə çatmasının səbəbi nədir? Hər iki dövlət Kollektiv Təhlükəsizlik Müqaviləsi Təşkilatının üzvüdür. Təşkilatın reaksiyası necə olacaq? Bölgədə genişmiqyaslı hərbi əməliyyatların başlanması mümkündürmü? Bu suallarla bağlı hafta.az rəsmilərin, ekspertlərin rəylərini təqdim edir:

### Andrey Kazantsev, rusiyalı ekspert:



- Mərkəzi Asiyanın bütün dövlətləri koronavirus və dünyada enerji qiymətlərinin aşağı düşməsi səbəbindən iqtisadi böhran yaşayırlar. Belə vəzyyətdə bölgənin bütün ənənəvi problemləri kəskinləşir. Bəzən partlayış həddinə çatan gərginlik formalaşır.

Qarşıdurmaları körükləyən amillər sırasında Əfqanıstandan Rusiya və Avropaya narkotrafikin artması, işsizlik səviyyəsinin yüksəlməsi, ABŞ qoşunlarının Əfqanıstandan çıxması fonunda transsərhəd ərazilərdə təhdidlərin artması da qeyd olunmalıdır.

Fikrimcə, genişmiqyaslı müharibə riski yoxjur. Tacikistanın da, Qırğızıstanın da bu cür hərbi əməliyyatlar üçün resursları mövcud deyil. Digər təhlükə də mövcuddur. Ümumi sərhədlərdəki gərginlik dərinləşə bilər. Hər iki ölkənin sərhədinə nəzarət problemləri mövcuddur. Məlum xarakterli toqquşmalar isə mərkəzi hakimiyyətlərin vəziyyətə müdaxilə imkanlarını məhdudlaşdırır ki, 90-cı illərin əvvəllərində yaşanan qanlı olayların təkrarlanması riski artır. Hansı ki, Özbəkistan və Qırğızıstan hərbçiləri terrorçu hərbi birləşmələrdə müharibə etmək məcburiyyətində qalmışdı. Əgər bölgədə vəziyyət genişmiqyaslı hərbi əməliyyatlara çevrilmə təhlükəsi ilə üz-üzə qalsa, Rusiya reaksiya vermək məcburiyyətində qalacaq. Hər iki dövlət Kollektiv Təhlükəsizlik Şurasının üzvüləridir. KTMT tarixində belə vəziyyət hələ yaşanmayıb. Vəziyyət gərginləşsə, sülhməramlılar yeritmək məcburi olacaq. Məlumatlara əsasən, artıq bu istiqamətdə işlər görülür. Tərəflərin gücünün zəif olduğunu nəzərə alsaq, bu ssenarini reallaşdırmaq və onlara qəbul etdirmək çətin olmamalıdır. Bu sadəcə rusiyalı hərbçilər tərəfindən reallaşdırılacaq texniki məsələ mahiyyəti daşıyır.

### Andrey Qrozin, MDB İnstitutunun Mərkəzi Asiya bölməsinin rəhbəri:



- İndiki qarşıdurma Tacikistanla Qırğızıstanın ali rəhbərlikləri arasındakı münasibətlərin pisləşməsi fonunda baş verir. Son aylarda Düşənbə və Bişkek arasında gərginlik gözlə görünəcək qədər artıb. Bir müddət əvvəl Sadır Japarov Daşkəndə səfər etdi. Özbəkistanla Qırğızıstan arasında sərhəd məsələləri ilə bağlı yekun həll variantının tapılması üçün bəyannamə imzalandı. Qırğızıstan hakimiyyəti Tacikistanla da bu cür həll variantının tapılmasına böyük ümidlər bəsləyirdi. Qarşı tərəf bu yanaşmaya o qədər də isti yanaşmadı. Tacikistan Prezidenti İmoməli Rəhmon 9 apreldə Vorux anklavına səfər edərək ərazi mübadiləsinin gerçəkləşməyəcəyini bəyan etdi. Qırğızıstanın "Təhlükəsizlik - 2021" hərbi təlimlərini mübahisəli ərazilərə yaxın yerdə təşkil etməsi də Düşənbədə güc təhdidi kimi qiymətləndirilib. Qırğızıstan məsələlərin qısa zamanda həllini istəyir. Bişkek mövcud sərhəd zolağını saxlamaqla bəzi ərazilərin mübadiləsini həyata keçirməkdə maraqlıdır. Qırğızıstanın cənubunda sürətlə əhali azalmaqdadır. Bu vəziyyət isə Tacikistanın lehinə işləyir. Sərhəd ərazilərdə əhali artımı çox yüksəkdir. Taciklər sakit bir şəkildə müxəlif variantlar, o cümlədən daşınmaz əmlak almaqla bu əraziləri ələ keçirirlər. Göründüyü kimi, proseslərin gedişi sürətlə dəyişir. Məsələnin birdəfəlik həlli mümkün olmadığından, toqquşmaların gələcəkdə hansı ssenari üzrə inkişaf edəcəyini də söyləmək çətindir. Gəlinən nəticə isə budur ki, Rusiya aparıcı dövlət statusuna malik olduğu KTMT üzvləri arasında genişmiqyaslı hərbi əməliyyatlara imkan verməyəcək, bölgəyə son anda özünün sülhməramlılarını yeritməklə vəziyyəti müvəqqəti də olsa dondurmağa çalışacaq.

### Stanislav Zas, Kollektiv Təhlükəsizlik Müqaviləsi Təşkilatının Baş katibi:



- Tacikistanla Qırğızıstan arasında münaqişə sülh yolu ilə həll olunmalıdır. Təşkilat baş verənləri diqqətlə izləyir və təhlil edir. Kollektiv Təhlükəsizlik Müqaviləsi Təşkilatı olaraq hesab edirik ki, yaranmış münaqişəyə son qoyulmalıdır. Hazırda bu məsələnin sülh yolu ilə nizamlanması üçün bütün mümkün tədbirlər görülür.

### Məhəmməd Əsədullazadə, politoloq:



- Tacikistan və Qırğızıstan arasında müharibənin başlanması Rusiyanın Kollektiv Təhlükəsizlik Müqaviləsi Təşkilatının gələcək fəaliyyətini şübhə altına qoyur. Hər iki ölkə Kollektiv Təhlükəsizlik Müqaviləsi Təşkilatının üzvüdür və demək olar ki, Rusiyanın orbitindədir. Hər iki ölkədə Rusiyanın mövqeləri güclüdür. KTMT üzv olan ölkələrin bir üzvü xarici təcavüzə məruz qaldıqda, digər üzv ölkələr müdaxilə etməlidir. Tacikistan və Qırğızıstan bir-birlərinə qarşı müharibə aparır. Bu, təşkilat daxilində birliyin olmaması və ciddi bir təşkilat olmadığını göstərdi.

Rusiya belə bir boş təşkilata Azərbaycanı üzv etməyə çalışır. Göründüyü kimi, Rusiyanın regional layihələrində yer alan ölkələr bu və ya digər şəkildə münaqişədədir. Azərbaycan KTMT və Avrasiya İttifaqında üzv olmamalıdır. Üzv ölkələr arasında münaqişənin alovlandırılması məhz Moskvadan idarə edilir. Digər tərəfdən, son aylarda Türkiyənin Mərkəzi Asiyaya açılımı və Çinin burada təsirini artırması Rusiyanın regionu qarışdırmasına gətirib çıxarır.

### Natiq Miri, politoloq:



- Orta Asiyanı özünün "arxa bağçası" hesab edən Rusiya həmişə istənilən geosiyasi məqsədlərə çatmaq üçün əvvəlcə hərbi böhran yaradır və sonra bir təzyiq mexanizmi olaraq öz istəklərinə nail olur. Bu kontekstdə Orta Asiya ölkələrində sərhəd problemi var. Təkcə Qırğızıstanla Tacikistan arasında deyil, Qazaxıstanla Qırğızıstan arasında, eyni zamanda Özbəkistan arasında da bu cür sərhəd ərazi problemləri mövcuddur. Məhz bu vəziyyətdən istifadə edərək Rusiya zaman-zaman süni olaraq hərbi böhranlar, təxribatlar yaradaraq, Orta Asiyada müəyyən ölkələrə mesajlar verə bilir. Özbəkistan son zamanlar Türkiyə ilə yaxınlaşmaqdadır. Türkiyə-Özbəkistan arasında hərbi anlaşmanın imzalandığı məlumdur. Qazaxıstandan sonra Özbəkistanın da Türkiyə ilə hərbi anlaşma imzalaması tədricən bu ölkələrin Orta Asiyanın ən böyük güclü ölkələrinin Türkiyənin orbitinə yaxınlaşması ehtimalını yaradır. Qırğızıstan-Tacikistan arasındakı bu hərbi konfliktin səbəblərindən biri budur. Son zamanlar Tacikistan da nisbətən müstəqil siyasət yürütməyə başlıyıb. Bu da əlbəttə ki, Rusiyanın xoşuna gələcək bir hadisə deyil. Əgər Qırğızıstanda hakimiyyət dəyişikliyini düşünsək, bunun Rusiya tərəfindən törədiləcəyi ehtimalı daha yüksək olur. Bilirirk ki, Qırğızıstanda son prezident seçkilərindən sonra rusiyayönlü, rusiyatəhsilli bir adam prezident kürsüsünə gəldi ki, bu da yenidən Qırğızıstanın Rusiyanın orbitinə gəlməsi anlamına gəlir. Qırğızıstan nə qədər kasıb ölkə olsa da, almaz, qızıl istehsalı baxımından zəngin ölkədir. Bu istehsalı həyata keçirən şirkətlər də artıq yenidən Rusiyaya verilib. Son Tacikistan-Qırğızısatan münaqişəsinin törədilməsində də bu ölkələrin rəhbərliyinin müstəqil belə bir qərar verməsini düşünmürəm. Ona görə də bu baş verənlərin Rusiyanın maraqlı kontekstində baş verdiyini düşünürəm.

***✍ Azad Əliyev***

# Şəhid Xudayarın avazı...

## Etiraz

***Vətən arzusu ilə nəğmələr qoşan, şirinsəsli şəhidimiz Xudayar Yusifzadə döyüş vaxtı etdiyi ifa ilə milyonlarla ürəyə taxt qurdu. Təəssüflər olsun ki, bir cəmiyyətdə hər kəs eyni olmur. Elə bu səbəbdəndir ki, bir müddət öncə Tvitterdə "Əhməd" adlı hesabdan "Xudayar çoxdandı təzə mahnı buraxmır" deyə ironik paylaşım edilib. Daha sonra Fuad Rəsulzadə həmin sözləri özünün dediyini açıqlayıb.***



Ardınca isə şəhid Xudayar Yusifzadənin qardaşı, dayısı və xalasıoğlu Fuad Rəsulzadəni "cəzalandırmaq" məqsədilə döyüb. Hazırda cinayət işi üzrə istintaq tədbirləri davam etdirilir.

Bəs görəsən, hazırkı vəziyyətdə şəhidlərin statusunun qorunması, onların alçaldıcı hərəkətlərə məruz qalmamasının qarşısını almaq məqsədilə xüsusi qanuna ehtiyac varmı? Bir qrup şəxsdə şəhid və qazilərimizə qarşı yaranmış xoşagəlməz halların səbəbləri nələrdir? Bu cür halların qarşısını almaq üçün daha hansı addımlar atılmalıdır? Hafta.az-ın əməkdaşı mövzu əhatəsində mütəxəssislərlə müzakirə apardı.

■ **İlk olaraq Millət Vəkili Elşad Mirbəşir məsələyə münasibət bildirdi. O söylədi ki, bu olduqca həssas mövzu, həm də mənəviyyat məsələsidir:**

"Şəhidlərimizn hər birinin qarşısında baş əyirəm. Onlar bugünümüzlə yanaşı, həm də gələcəyimizin müdafiəsində dayanıb, torpaqlarımızı işğaldan azad etdilər. Düşünürəm ki, cəmiyyətdə şəhidlərimizə həssas yanaşma mövcuddur. Onların xatirəsi hər zaman uca tutulur. Buna görə fikrimcə, el arasında bu dəyərlərin daha da möhkəmləndirilməsi istiqamətində işlər aparmaq vacibdir. Neqativ halların qarşısını almaq, qanunvericilikdən çox ictimai qınaqla tənzimlənməlidir. Bir cəmiyyətdə şəhidə necə ögey münasibət bəslənilə bilər? Bu, qəbuledilməz bir haldır. Dövlətimiz, cəmiyyətimiz şəhidlərini hər zaman uca tutur, xatirəsini böyük ehtiramla anır. Bəzən təəssüf doğuran məqamlara da rəst gəlinir. Bu da çox kəskin ictimai qınağa səbəb olur. Bir məqamı vurğulamaq istəyirəm ki, bütün hallarda məsələ qanunvericiliklə tənzimlənməlidir. Təbii ki, ictimai qınaq ola bilər, lakin elə fiziki gücün tətbiq edilməsi hüquqi məsuliyyət yaradır. Belə xoşagəlməz hallardan qaçmaq lazımdır, nəzərə alaq ki, hər iki vəziyyət cəmiyyətimizin dəyərləri ilə uzlaşmır".



*Şəhidlərlə bağlı bu cür qıcıq hissinin kökündə yatan ilkin səbəb bizim xalqın "aşağılıq" kompleksidir*

*Şəhidlərə qarşı təhqiredici ifadələr işlədən hər bir şəxs hüquqi məsulliyyət daşıyır*

Deputatın sözlərinə görə, əhali arasında maarifləndirmə işlərinin aparılması intensivləşdirilməlidir: "Bütünlükdə isə bizdə şəhidə böyük ehtiram var. Bu da Azərbaycan xalqının artıq həm də mental dəyəridir".

Mövzu ilə bağlı qanunvericilikdə yeniliyə zərurətin olub olmadığına gəldikdə isə, E.Mirbəşir bildirdi ki, bu, daha çox mənəvi-psixoloji məsələdir. Qanunvericilikdə sözügedən halla bağlı hansısa dəyişikliyin edilməsi o cür başa düşülə bilər ki, Azərbaycan cəmiyyətində bu tip neqativ hallara tez-tez rast gəlinir, ancaq bu belə deyil: "Bizdə şəhidə çox böyük ehtiram var. İlk dəfə idi ki, belə hal yaşanırdı. O cəmiyyətdə qanun dəyişikliyinə ehtiyac yaranar ki, onlar şəhidinə etinadsız və hörmətsiz yanaşsınlar. Düşünürəm ki, qanunvericilikdə dəyişikliyin olunmasına zərurət yoxdur.

Ardınca isə müzakirəmizə sosioloq Əhməd Qəşəmoğlu ilə davam etdik. Ekspert bildirdi ki, şəhidin ünvanına səsləndirilən xoşagəlməz ifadələr yolverilməz haldır. Yaranmış vəziyyətin söz azadlığı ilə heç bir əlaqəsi yoxdur:

*O cəmiyyətdə qanun dəyişikliyinə ehtiyac yaranar ki, onlar şəhidinə etinadsız və hörmətsiz yanaşsınlar*

*Məsələnin azad cəmiyyət və ifadə sərbəstliyi ilə əlaqəsi yoxdur*

"Hüquqa əsasən birini döymək, təbii ki, yolverilməz haldır. Hər zaman deyirlər, günahı olan birini məhkəməyə şikayət edin, onlar bu işi araşdırsınlar. Hər şeydən öncə Xudayar şəhiddir. İkinci tərəfdən də onun istedadlı gənc olması, ifası və davranışları insanlarda böyük sevgi yaratdı. Biz təkcə bir gəncimizi deyil, eyni zamanda xanəndəmizi itirmişik. Belə bir gəncin haqqında artıq-əskik danışmaq heç düzgün deyil. Məsələnin azad cəmiyyət və ifadə sərbəstliyi ilə də əlaqəsi yoxdur".

Sosioloqun fikrincə, şəhid Xudayarı təhqir edən şəxslərin hərəkətinə susmaq cəmiyyətimiz üçün təhlükə demək idi:

"Həmin şəxsləri məhkəməyə verdikdə onlar bəlkə də tənbeh, yaxud da cərimə olunacaqdı. İnsanlar isə daha artıq cəza verilməsini istəyir. Bizim adət-ənənəmizin qəbul etdiyi normalardır. İctimai rəyi əsas götürsək, cəmiyyətin əksəriyyəti onu döyənləri qınamır. Bu gün biz şəhidlərə, qazilərə ehtiram göstərməyə borcluyuq. Yaranmış vəziyyətə etinasızlıq daha qorxulu idi, nəinki verilən reaksiya. Belə iş tutmaq olmaz, hələ bunun müqabilində kimsə əsəbiləşib onu öldürə də bilər. Hər bir halda döyülən gəncin də halına acıyır, digər tərəfdən isə bir ağsaqqal olaraq möhkəm qınayıram".

■ **Hüquqşünas Emil Aslanov mövzuya hüquqi aspektdən fikir bildirdi. O söylədi ki, şəhidlərə qarşı təhqiredici ifadələr işlədən hər bir şəxs hüquqi məsulliyyət daşıyır:** "Belə hal baş verərsə, həmin şəxslər şəhidin hüquqi varisi tərəfindən məhkəməyə verilib təhqir və böhtan maddələri ilə Cinayət Məsəlləsinin 147 və 148-ci maddələri ilə məsuliyyətə cəlb edilə bilərlər. Burada azadlıqdan məhrumetmə cəzası, cərimə, islah işləri kimi cəzalar mövcuddur".

■ **Müzakirəmizə son nöqtəni isə tanınmış psixoloq Tariyel Faziloğlu qoydu. O, baş verən hadisələri 4 əsas problemə şaxələdi:** "Şəhidlərlə bağlı bu cür qıcıq hissinin kökündə yatan ilkin səbəb bizim xalqın "aşağılıq" kompleksidir. Biz özümüzlə bağlı olan mövzuları lağ obyektinə çevirməyi xoşlayırıq. Qısa müddət öncəyə qədər nə pis hadisə baş verirdisə, insanlar rahatlıqla "Bura Azərbaycandır" kimi ifadələr işlədə bilirdilər. İkinci səbəb isə insanların şəhid və qazilərlə bağlı düşüncə sisteminə sahib olmamasıdır. Doxsanıncı illərdəki şəhid və qazilərlə bağlı ciddi bir tədbirin görülməməsi buna gətirib çıxardı. İndi bir anda ortaya çıxan belə anlayışlar bu tip insanlarda qıcıq yaratdı. Şüuraltında şəhid və qazi anlayışını qarşılayacaq düşüncə tərzi olmayan insanlar belə davranış sərgiləyir. Digər bir səbəb odur ki, bu gün dövlət qazi və şəhidlərlə bağlı tam olaraq xalqı maarifləndirmir. Sonuncu və elə fikrimcə ən əsas məqam isə ölkə, xalq olaraq "müharibə sindromu" yaşamağımızdır. Bu, çox təhlükəli haldır və düşünürəm, gələcəkdə daha dəhşətli nəticələr verə bilər. Misal olaraq 2021-ci ilin əvvəlindən artan intihar hadisələrini, kəskin amansızlıqla törədilən cinayətlərin çoxluğunu göstərə bilərəm".

Daha sonra psixoloq lazımi tədbirlər görülmədiyi halda, gələcəkdə bizi gözləyən daha ağır nəticələrin olduğunu xüsusi vurğuladı:

"Ətrafımıza baxsaq, hər kəsdə ciddi bir çılğınlıq sezmək mümkündür. Müharibə sindromu aşağılıq kompleksi ilə birləşdikdə dağıdıcı fəsadlara gətirib çıxara bilir. Fikrimcə, gələcəkdə bundan da ciddi qarşıdurmalar yaşayacağıq. Bu gün qəhrəman adlandırdığımız insanları bir müddət sonra xalq linç belə edə bilər. Yaxşı olardı ki, cəmiyyətimizdə güclü şəkildə psixoloji maarifləndirmə həyata keçirilsin".

Mütəxəssislərin fikirlərindən belə nəticəyə gəlmək olar ki, gələcəkdə belə halların yaşanmaması üçün ictimai qınaq və doğru maarifləndirmə başlıca şərtlərdir.

***✍ Banu***

## Müsahib

# Laçın dəhlizi tam şəkildə Azərbaycanın nəzarətinə keçəcək

**Torpaqlarımız işğaldan azad olunandan sonra, növbədi mərhələ üçün proseslər suverenliyimizin tam bərpası və iqtisadi-siyasi idarəetmədə müşahidə olunan problemlərin həllinə yönəlib. Ərazi bütövlüyünü hərblə təmin edən dövlət onu yalnız korrupsiyasız, rüşvətsiz bir iqtisadi məkanda inkişaf etdirə və qoruya bilərsə, o zaman bu prosesin uğurlu alınması üçün vacib olan əsas əsas nüanslar nədir? Bu və ya digər məsələlərlə bağlı "Həftə içi"nə müsahibə verən Milli Məclisin deputatı Elşad Mirbəşir maraqlı fikirlərə diqqət çəkib.**

*- Elşad müəllim, ermənilərin Xankəndini tərk etməsi ilə bağlı xəbərlər yayılır. Siz mövcud vəziyyəti necə dəyərləndirirsiz?*

- Azərbaycan inamla qələbə qazandı və sonucda regionda yeni reallıqlar yaratdı. Bu reallıq, təbii ki, Azərbaycanın maraqlarına tam uyğundur. Öz torpaqlarını işğaldan azad edən Azərbaycan regionda kommunikasiyanın açılması, iqtisadi layihələrin həyata keçirilməsi istiqamətində fəaliyyətini davam etdirir. Əlavə olaraq da Azərbaycanın təşəbbüsü və Türkiyə tərəfindən də dəstəklənən yeni əməkdaşlıq platforması müzakirə obyektinə çevrildi. Bu da region dövlətləri üçün gələcək əməkdaşlığın inkişaf etdirilməsi baxımından unikal imkanlar açır. Ötən ilin 10 noyabr tarixində imzalanmış birgə bəyanatında yer alan bütün maddələr Azərbaycanın maraqlarına uyğundur. Xüsusilə 9-cu maddədə Naxçıvanla Azərbaycan arasında nəqliyyat kommunikasiyanın yaradılması sözün əsl mənasında geosiyasi və geoiqtisadi simasını dəyişdi. Bu da ayrıca olaraq Azərbaycanın öz prioritetlərini uğurla həyata keçirdiyinin növbəti sübutudur. Təbii ki, sual doğuran bəzi məqamlar var, bunu ölkə prezidenti də vurğulayıb. Sülhməramlılar öz missiyasına uyğun davranmalıdırlar. Birgə bəyanaməyə əsasən sülhməramlılar yerləşdirilib. Bir çox hallarda Azərbaycan cəmiyyətini narahat edən proseslər müşahidə olunur. Sülhməramlıların keçmiş münaqişə bölgəsinə yerləşdirilməsinin məqsədi ondan ibarətdir ki, yenidən qarşıdurma baş verməsin, birgə bəyanatın şərtlərinə dəqiqliklə əməl olunsun. Azərbaycan dövlətinin, cəmiyyətinin də gözləntisi ondan ibarətdir ki, sülhməramlılar məhz müəyyənləşdirilmiş missiyaya uyğun davransınlar. Fərqli davranış tərzi təbii ki, qəbulolunmazdır.

Bununla yanaşı qeyd etmək lazımdır ki, Azərbaycan özünün güc mövqeyini də formalaşdırdı. Bəzən Ermənistanda revanşçı qüvvələrin baş qaldırmasına baxmayaraq, birgə bəyanatın şərtlərinə ardıcıllıqla əməl olunmaqdadır. Birgə bəyanatın şərtlərindən biri də ondan ibarətdir ki, erməni silahlı birləşmələri ərazidən çıxarılsın. Yayılan videogörüntülərdə bunun əlamətləri müşahidə olundu. Bütün hallarda erməni silahlı birləşmələri regiondan çıxmalıdırlar. Birgə bəyanatın şərtlərinə əməl olunmasında Rusiyanın özü çox maraqlıdır. Bu, Rusiyanın beynəlxalq imici məsələsidir. Rusiyanın vasitəçiliyi ilə imzalanmış bir kağız parçası olaraq qalarsa, beynəlxalq müstəvidə ona olan etimadı azaldacaq. Yəni Rusiyanın siyasi siması korlana bilər. Təsadüfi deyil ki, Vladimir Putin birgə bəyanatın şərtlərinə əməl olunmasından boyun qaçırmağı intihara bərabər hesab etmişdi. Fikrimcə bu, elə Ermənistana yönəlik bəyanatdır. Ermənistan məğlubiyyətinin müəyyən qədər də olsa kompensasiyasına nail olmaq istəyir, amma bunu heç bir halda bacarmayacaq. Bütün hallarda birgə bəyanatın şərtlərinə tədricən də olsa əməl olunacaqdır. Bunun başqa bir yolu yoxdur. Azərbaycan bu gün ermənilərin yaşadıqları ərazilərimizdə də öz suverenliyini tam bərpa edəcək.

*- Məsələyə bu aspektdən yanaşan ölkə ictimaiyyəti suverenliyin tam bərpasını Laçın dəhlizindən tutmuş, digər ərazilərimizdə Azərbaycan sərhəd qoşunlarının dayanmasında görür. Təhlükəsizliyin və suverenliyin əsası bundan başlayırsa, bu barədə nə söyləyərdiniz?*

- Bütünlükdə məsələyə fundamental yanaşma tətbiq etmiş olsaq, qeyd etmək lazımdır ki, ümumiyyətlə, Azərbaycan ərazisində bütün hərəkətlənmələr Azərbaycanın icazəsi ilə və Azərbaycanın nəzarəti altında olmalıdır. Bunun üçün hərhansı əlavə hüquqi əsasa ehtiyac yoxdur. Azərbaycan görünən bu amilləri nəzərə alaraq, Laçın dəhlizindən Rusiya sülhməramlılarının nəzarəti altında istifadəyə imkan yaradır.



**Elşad Mirbəşir,**
Milli Məclisin deputatı

Bilirik ki, üç il müddətində də əlavə alternativ dəhliz yaradılmalıdır. Bundan sonra Laçın dəhlizi tam şəkildə Azərbaycanın tərkibinə keçəcəkdir. Bütövlükdə Azərbaycan öz ərazisində tam sərbəst davranmaq imkanına malik olmalıdır. Əminəm ki, bizim strategiyamız buna imkan verəcək ki, bütün ərazilərimiz boyu süverenliyimizi təmin edəcəyik. Belə olan halda təbii ki, bütün bölgələrə də nəzarəti həyata keçirəcəyik.

*- Yeni reallıqlar fonunda "Dağlıq Qarabağ Bölgəsinin Azərbaycanlı İcması" İctimai Birliyi aprelin 30-da təşkilatı buraxdı. Yerli əhali nə vaxt Xankəndiyə, Xocalıya və digər ərazilərə köçürüləcək. "Qarabağa dönüş" prosesi öz həllini necə tapacaq?*

- "Qarabağa dönüş" deyəndə hər kəsin birmənalı olaraq vaxtilə yaşadığı evinə qayıtması nəzərdə tutulur. Bura birmənalı olaraq Xankəndi, Xocalı və digər ərazilərimiz də daxildir. Hesab edirəm ki, bu təmin olunacaqdır. Sülhməramlıların əsas missiyalarından biri də bundan ibarət olmalıdır ki, istisnasız olaraq azərbaycanlılar öz atababa yurdlarına köçsünlər. Qarabağa köçürülmə strategiyası dövlətimiz tərəfindən hazırlanmaqdadır. Bununla bağlı artıq strateji baxışlar da mövcuddur. Xatırlatmaq istəyirəm ki, hazırda ictimai rəy sorğusu da keçirilməkdədir. Yeri gəlmişkən qeyd edim ki, rəy sorğusunu həm də təmsil olunduğum Sosial Tədqiqatlar Mərkəzi keçirtməkdədir. Təbii ki, bu dövlətin gələcək addımlarının koordinasiyası üçün çox vacibdir. Əldə olunan nəticələrdən asılı olaraq müvafiq addımlar atılacaq. Təbii ki, hər şeydən öncə təhlükəsizliyin təmin olunması tədbirləri görülməkdədir. Cənab Prezident tərəfindən bünövrəsi qoyulan yaşayış məskənləri yaradılacaqdır. Ağalı kəndində ilk ağıllı kənd layihəsinin həyata keçirilməsinə start verildi. Məskunlaşma həyata keçirildikcə, azərbaycanlıların nəfəsi ərazidə duyulduqca, regionda yeni bir mənzərə yaranacaq. Hazırda Azərbaycan 3 istiqamətli strategiya həyata keçirməklə torpaqları üzərində tam suverenliyini təmin edəcəkdir. Bu, birinci siyasi istiqamət idi, ikinci hərbi, bundansonrakı mərhələdə isə Azərbaycan strategiyasının iqtisadi istiqamətini gerçəkləşdirərək bütün ərazilərimizdə effektiv nəzarətini tam təmin edəcək. Kiçik ərazilərdə ermənilər yaşamaqdadır, regionda Azərbaycanın yaratmış olduğu iqtisadi şərait, təbii ki, orada yaşayan ermənilərdə də separatizm hisslərindən tam uzaqlaşmasını regiondakı şəraitdən yararlanmasını şərtləndirəcək. Əgər buna getməzlərsə yenə də separatçılar baş qaldırarsa, Azərbaycan öz ərazisində onları zərərsizləşdirəcək, terrora meyillilik olarsa, antiterror əməliyyatlarını keçirəcək. Düşünürəm ki, bu da atılacaq addımlar arsenalında nəzərdə saxlanılacaq.

*- Dediniz ki, Sosial Tədqiqatlar Mərkəzi olaraq sorğular keçirirsiniz. Maraqlıdır, apardığınız tədqiqatlara, araşdırmalara əsasən əhalinin hansı problem və istəkləri özünü daha qabarıq büruzə verir? Həllini gözləyən əsas sosial tələb nədir?*

- Biz sorğunun keçirilməsi ərəfədsindəyik. İlkin əsaslar formalaşdırılır. Sorğunun keçirilməsi metodları və mexanizmləri

> Azərbaycan ərazisində bütün hərəkətlənmələr bizim icazəmiz və nəzarətimiz altında olmalıdır

müəyyənləşirilib. Təbii ki, ümumi diqqət yetirilən başlıca məqam ondan ibarətdir ki, insanların öz dədə-baba yurdlarına qayıtma istəyinin həddini müəyyənləşdirək. Bu böyük faiz göstəricisi ilə müəyyənləşmiş olacaq. Onların gözləntiləri nədən ibarət olacaq, regionda yaradılacaq hansı amillər, hansı reallıqlar onların qayıdışını stimullaşdıracaq. Bir sözlə, kompleks olaraq baş verən proseslərə qatılmaqla sorğunun nəticələrini almaq niyyətindəyik.

*- Elşad müəllim, bu prosesdə korrupsiya ilə mübarizə məsələsi də əsas məqamlardan hesab olunur. Milli Məclisin Korrupsiya ilə mübarizə komitəsinin üzvü kimi necə hesab edirsiniz, qanunvericilik belə hallara qarşı nə tələblər irəli sürür?*

- Hər şeydən öncə vurğulamaq lazımdır ki, təkcə qayıdış və işğaldan azad olunmuş ərazilərimizin bərpası sahəsində deyil, fəaliyyətin bütün sahələrində korrupsiya, rüşvət alma halları kəskinliklə qınanılır və bunun qarşısı alınmalı və buna qarşı barışmaz mövqe nümayiş etdirilməlidir. Ölkəmizdə bu istiqamətdə kompleks fəaliyyətin həyata keçirilməsi üçün iradə mövcuddur. Korrupsiyaya qarşı mübarizədə intensivlik gözlənilməlidir.

*- Məlumdur ki, bu günlərdə Şəmkirin icra başçısı da tutuldu. Prokurorluğun xəbərlərinə görə milyonluq obyektlər 40 manata ailə üzvlərinə satılıb. Bu məsələdə təbii ki, tenderə qoşulanların hüquqları da pozulub. Bu barədə nələri söyləyərdiniz?*

- Həm ümumi normativ hüquqi əsaslar, həm də ki cəmiyyətdə ədalət prinsipləri kifayər edir ki, bütün tenderlər ədalətli və şəffaf keçirilsin. Hesab edirəm, bütün bunlara əməl olunacaqdır. Korrupsiyaya gəldikdə isə bir daha qeyd edirəm ki, bu mübarizə davamlı olmalı və barışmaz mövq tutulmalıdır. Bu, təkcə bugünkü inkişaf strategiyasını əngəlləmir, həm də gələcək hədəflərimizə çatmağa çox ciddi şəkildə mane olur.

*- Neçənci icra başçısıdır ki, artıq həbs olunur. Bu həbslər göstərir ki, mövcud icra strukturları Prezidentin elan etdiyi islahatlar paketinə uyğun gəlmir. Sizcə, hansı dəyişikliklər olmalıdır?*

- Bildiyimiz kimi ölkəmizdə, xüsusilə də 2019-cu ilin əvvəlindən başlayaraq həm kompleks kadr islahatları, həm də institusional islahatlar həyata keçirilməkdədir. Əsas şərt ondan ibarətdir ki, dövlət idarəçilikdə çeviklik, həssaslıq artırılsın, səmərəlilik çoxalsın. Kadr və institusional islahatların paralel aparılmasını müşahidə etməkdəyik. Hesab edirəm ki, bu öz bəhrəsini verəcəkdir. İnstitusional islahatlarda isə bütövlükdə dövlət idarəçilik sistemində də məqbul bilinən dəyişikliklərin edilməsi nəzərdə tutulur. Atılmış addımlar həm regional idarəetmə sistemində, həm də bütövlükdə dövlət idarəçiliyinin ayrı-ayrı sahələrində öz müsbət nəticələrini göstərəcəkdir.

*- Qarabağda korrupsiyaya bulaşmamış idarəetmə vasitələrinin yaradılmasından danışılır. Bunun həyata keçirilməsini necə görürsünüz?*

- Cənab Prezident tərəfindən 2020-ci il oktyabr ayının 29-da işğaldan azad olunmuş ərazilərdə xüsusi idarəetmənin təşkili haqqında sərəncam imzalandı. Bunun özü göstərir ki, ölkə Prezidenti işğaldan azad olunmuş ərazilərin effektiv idarə olunmasını lap başlanğıcdan diqqət mərkəzində saxlayır və prezidentin nümayəndəliyi institutu da yaradıldı. Bildiyiniz kimi, ilk dəfə olaraq Prezidentin nümayəndəsi Şuşa şəhərinə təyin olundu. Bunun özü mühüm bir institusional islahatların başlanğıcıdır. Cənab Prezident tərəfindən korrupsiya hallarının qarşısının alınması istiqamətində israrlı addımlar atılır. Bu addımlar özündə həm kadr islahatlarını, həm də institusional islahatları ehtiva edir.

*✍ Tahirə Qafarlı*



**Ceyhun Bayramov,**
Azərbaycanın Xarici İşlər naziri

# Azərbaycan gələcəyə doğru baxmağın tərəfdardır

***"Üçtərəfli bəyanatların icrası istiqamətində müsbət işlər görülüb". Bunu Azərbaycanın xarici işlər naziri Ceyhun Bayramov Bakıda səfərdə olan Litvanın xarici işlər naziri ilə birgə mətbuat konfransında deyib. O qeyd edib ki, Azərbaycan tərəfi bütün öhdəliklərini məsuliyyətlə yerinə yetirir və noyabrın sonunda hərbi əsirlərin mübadiləsi başa çatıb: "Ötən il noyabrın sonunda xüsusi əməliyyat nəticəsində Azərbaycan ərazisinə qeyri-qanuni keçən 62 nəfər tutulub.***

Həmin şəxslərin əməlləri ilə bağlı araşdırmalar davam edir və onların əməllərinə hüquqi qiymət veriləcək. Bütün bunlar litvalı nazirin diqqətinə çatdırılıb". "Məcburi köçkünlərin işğaldan azad olunan torpaqlara qayıtması üçün sistemli və ardıcıl addımlar atılır". Ceyhun Bayramov deyib. Nazir bildirib ki, bu torpaqlarda infrastrukturun dağıdılması barədə litvalı həmkarını məlumatlandırıb. "Həmin ərazilər 30 il ərzində minalarla çirkləndirilib. Azərbaycanın və beynəlxalq tərəfdaşların çağırışlarına baxmayaraq, Ermənistan mina xəritələrini verməkdən boyun qaçırır və hərbi cinayətini davam etdirir. 10 noyabrdan bəri mina partlayışı nəticəsində 22 nəfər həlak olub, 100 nəfər yaralanıb. Ermənistana təzyiq artırılmalıdır. Dünya dövlətləri, beynəlxalq təşkilatlar buna səssiz qalmamalıdır", - deyə XİN başçısı vurğulayıb. "Azərbaycan gələcəyə doğru baxmağın tərəfdarıdır". Ceyhun Bayramov vurğulayıb. O bildirib ki, Azərbaycan ərazi bütövlüyü, suverenlik prinsipləri çərçivəsində Ermənistanla münasibətlərin normallaşmasına tərəfdardır. "Bu yanaşma bütün beynəlxalq aktorların marağında olmalıdır", - deyə C. Bayramov vurğulayıb.

"Azərbaycanın səfirliklərinə və diaspor nümayəndələrinə qarşı radikal hərəkətlər edilir. Belə aksiyalardan biri Los Ancelesdə keçirildi. Bunu qətiyyətlə pisləyirik. Ermənistanda nifrət zəminində çıxışlar, çağırışlar çoxdur", - Ceyhun Bayramov deyib. Nazir qeyd edib ki, Ermənistanda Azərbaycanla münasibətlərin normallaşması üçün çağırış edənlər təhqir olunur, belə çağırışı edənlər xəyanətkar adlandırılır: "Yalan və saxta miflər üzərində qurulmuş bu addımlar təhlükəlidir. Biz artıq xəstəlik səviyyəsinə çatan dözümsüzlük kampaniyasının şahidi oluruq". "Ermənistan antisemitizmin hökm sürdüyü ölkələr arasında ilk yerlərdədir", - nazir bildirib. Nazir Ermənistanda Holokost abidəsinə qarşı vandalizm aktının törədildiyini xatırladıb. "Bir neçə gün öncə İrəvanda Mahatma Qandinin heykəlinə qarşı də vandalizm aktı törədilib, heykəl yandırılıb. Erməni xalqı onların beyninə saxta fikirlər yeridən ideoloqlarından yaxalarını qurtarsalar, bu, hər kəs üçün, elə onların özləri üçün də yaxşı olar. Biz hesab edirik ki, gələcəyə baxmaq lazımdır. Erməni xalqı bunu nə qədər tez anlasa, bu, regional inkişaf, sülh və stabillik üçün yaxşı olar", - deyə XİN başçısı vurğulayıb.

*✍ Hafta.az*



**■ Ötən illərdə hərbi səbəblərlə əlaqədar təyin edilmiş əlillik müddəti bitən və təkrar əlillik təyinatı aparılması üçün barələrində e-sistemə göndəriş daxil edilib, habelə əlillik sənədlərində ziddiyyət aşkarlanan daha 27 nəfərin komissiya tərəfindən əlilliyinin əyani qiymətləndirilməsi aparılıb.**

Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyindən hafta.az-a verilən məlumata görə, onlardan 15-nin xəstəlik diaqnozlarının əlilliyə əsas verməmdiyi, bu diaqnozların onların sağlamlıq vəziyyətlərinə uyğun olmadığı müəyyən edilib. Həmin şəxslərə təkrar əlillik təyin olunmasından imtina qərarı verilib.



**■ Milli Şuranın sədri Cəmil Həsənlinin qızı Günel Həsənlinin sosial şəbəkələrdə yayılan intim görüntüləri ilə bağlı cinayət işi başlanıb. Bu barədə hafta.az-a Daxili İşlər Nazirliyinin Mətbuat xidmətinin rəisi, polis polkovniki Ehsan Zahidov deyib.**

O bildirib ki, fakta görə Cinayət Məcəlləsinin 242-ci (pornoqrafik materialları və ya əşyaları qanunsuz yayma) maddəsi ilə cinayət işi başlanılıb, istintaq hərəkətləri davam etdirilir: "Videoları yayan şəxs müəyyən olunub. Hazırda istintaq getdiyi üçün əlavə məlumat verilmir. İstintaq başa çatandan sonra nəticələr haqda məlumat veriləcək".




**■ "Vətəndaş yaşadığı ərazi üzrə səhiyyə müəssisəsinə yaxınlaşaraq ailə həkimi ilə tanış ola bilər. Həmçinin həmin ailə həkimini istəmirsə, o digər həkimlə əvəzlənə bilər".**

Bu barədə İcbari Tibbi Sığorta üzrə Dövlət Agentliyinin Vətəndaş müraciətləri şöbəsinin koordinatoru Nərgiz Hacıyeva danışıb. O qeyd edib ki, ailə həkiminin dəyişdirilməsi üçün vətəndaş ərizə ilə müraciət etməlidir: "Bununla bağlı tibb müəssisəsi 2 iş günü ərzində vətəndaşa bildiriş təqdim edəcək. Orada yeni ailə həkiminin adı, soyadı, tibb müəssisəsi ilə bağlı məlumat qeyd ediləcək". N. Hacıyeva həmçinin bir ailə həkiminə nə qədər vətəndaşın təhkim olunduğunu da açıqlayıb.



**■ Azərbaycan Respublikasında "COVID-19" xəstəliyi əleyhinə 2021-2022-ci illər üçün Vaksinasiya Strategiyası"na uyğun olaraq ölkə üzrə peyvəndlənmə prosesi mərhələli şəkildə davam edir.**

Bu barədə Səhiyyə Nazirliyi, İcbari Tibbi Sığorta üzrə Dövlət Agentliyi və Tibbi Ərazi Bölmələrini İdarəetmə Birliyinin birgə məlumatında bildirilir. Qeyd olunub ki, mayın 3-dən ilkin olaraq 60 yaş və daha yuxarı şəxslər "COVID-19" xəstəliyinə qarşı peyvəndlənmə zamanı İngiltərənin Oxford universitetinin istehsalı olan "Vaxzevria" vaksinindən (İstehsalçı şirkət "Astra-Zeneca") də istifadə edə biləcəklər. "Vaxzevria" peyvəndinin istifadəsi Bakı şəhəri və 6 regionda - Lənkəran, Şəki, Gəncə, Mingəçevir, Abşeron və Sumqayıtda tətbiq olunacaq.



**■ Azərbaycan Mərkəzi Bankının (AMB) İdarə Heyəti uçot dərəcəsini sabit saxlanılması haqda qərar qəbul edib. Bu barədə faiz dəhlizinin parametrlərinə dair onlayn mətbuat konfransında çıxış edərkən Mərkəzi Bankın sədri Elman Rüstəmov deyib.**

Beləliklə, uçot dərəcəsi 6,25%-də, faiz dəhlizinin aşağı həddi 5,75%, faiz dəhlizinin yuxarı həddi isə 6,75% səviyyəsində qaldı. Xatırladaq ki, faiz dəhlizinin parametrlərinə dair növbəti qərarlarlar 18 iyun, 30 iyul, 17 sentyabr, 29 oktyabr, 17 dekabr tarixlərində nəzərdə tutulub. Qeyd edək ki, 30 iyul və 29 oktyabr tarixlərində qərarın açıqlanması mətbuat konfransı ilə müşayiət olunacaq.



**■ "COVID-19-a yoluxan şəxslərdə virus yükü nə qədər az olsa, xəstəliyi rahat keçirər. Virus orqanizmə nə qədər çox daxil olarsa, o şəxslər xəstəliyi daha ağır keçirir". Bu barədə cərrah Rauf Qasımov Səhiyyə Nazirliyinin stasionar şəraitdə COVID-19-un müalicəsilə bağlı canlı yayımda bildirib.**

O qeyd edib ki, koronavirus infeksiyasına ikinci, hətta 1 nəfərdə üçüncü dəfə yoluxma halını şəxsən müşahidə edib. Həkim qeyd edib ki, xəstənin bu xəstəliyi necə keçirəcəyi bədənin ümumi vəziyyəti, immun sistemi, virus yükünün nə qədər olması və digər hallardan asılıdır: "Dünya statistikasında birinci dəfə xəstəliyi yüngül keçirən, ikinci dəfə vəfat edən şəxslər var.

## COVID - 19

# Hindistanda koronavirus böhranı

***Bir ildən çoxdur ki, koronavirus pandemiyası dünyanı əsir edib. İlk gündən bu virusa sinə gərərək müəyyən uğurlar qazanan ölkələr olub ki, onlar hər zaman başqa xalqlar üçün nümunə rolunu oynayıb. Bu ölkələrdən biri də Hindistandır. Təəssüf ki, son bir neçə aydır, Hindistanda gündəlik yoluxma və ölüm sayı bəşəriyyəti heyrətləndirməkdədir. Yəni bu ecazkar ölkədə hər gün, az qala, 400 min insan virusa yoluxur, 4 min nəfər isə dünyasını dəyişir. Niyə Hindistan virusa qarşı dirənişini davam etdirə bilmədi, nə baş verdi ki, müvəqqəti də olsa yenildi bu mübarizədə? Hindistanlı məşhur həkim, uzun illər Bakıda fəaliyyət göstərən Hind klinikasının direktoru Dr. Ronald Dmello ilə söhbətləşərək bu suallara cavab almağa çalışdıq.***



**Dr. Ronald Dmello,**
Bakıda fəaliyyət göstərən Hind klinikasının direktoru

Müsahibimiz deyir ki, əvvəllər ölkəsində hər şey yaxşı idi. Baş nazir Narendra Modi bütün ölkədə karantin elan etmişdi, insanların yasaqlara uymasına ciddi nəzarət olunurdu və sair. Ona görə də gündəlik yoluxma və təbii ki, paralel olaraq ölüm halları ciddi şəkildə azalmışdı.

- Ötən ilin ortalarında Hindistanda vəziyyət tam nəzarət altındaydı. Düzdür, sentyabrda yoluxma sayında bir az artım nəzərə çarpdı, amma sonrakı aylarda yoluxmada yenidən azalma başladı - ta ki, bu ilin fevralınadək. Fevraldan başlayaraq koronavirusa yoluxanların sayı sürətlə yüksəlməyə başladı...

***- Sizcə, niyə məhz fevralda?***

- Əvvəlki ciddi karantin rejiminin ölkəyə gətirdiyi müvəqqəti sakitlikdən ruhlanan insanlar karantin qaydalarını pozmağa başladılar. Maska taxmaq, ara məsafəsini qorumaq kimi qaydalara əməl etmədilər. Fikirləşdilər ki, vaksin də vurulur, hər şey yaxşı olacaq. Digər yandan, əvvəlki aylarda karantin şəraiti ilə bağlı dini məkanlar qapadılmışdı, amma artıq bu yerləri ziyarət etmək üçün insanlara icazə verildi. Toy mərasimlərinin keçirilməsi də yoluxma sayının artmasında ciddi rol oynadı. Hindistan toyları Azərbaycandakından çox fərqlidir, bizdə hər toyda iki min-üç min adam iştirak edir. Daha bir faktor da var - bu, hər 12 ildə bir dəfə təkrarlanan hind milli ənənəsi olan "Kumbh Mela" dini ayinidir. Təsadüfən bu il aprelin ortalarına təsadüf elədi bu ayin yüzminlərlə hind haci Qanq çayının müqəddəs suyunda yaxalanaraq paklanmaq üçün çay sularına baş vurdu ki, bu da virusun yayılmasına şərait yaratdı.

***- Maraqlıdır ki, Baş nazir Modinin şəxsən nəzarətində olan karantin qaydaları niyə müvəqqəti sabitləşmədən sonra aradan qaldırıldı? Axı dünya təcrübəsində də var ki, dalğaların biri gedir, ikincisi və sair gəlir...***

- Təklif olundu ki, ötən il Hindistan dövlətinin hər yerində tətbiq edilmiş karantin



rejimi qaldırılsın və bu səlahiyyət federal hökumətdən alınaraq ştatların yerli kökümətlərinə verilsin. Belə də edildi. Bundan sonra vahid nəzarət mexanizmi olmadığı üçün vəziyyət indiki kimi ağırlaşdı. Xüsusilə də İngiltərə variantı yayılandan sonra virusa nəzarət çox çətinləşdi. Bilirsiniz, İngiltərə variantı koronavirusun mutasiyaya uğramış formasıdır və daha sürətlə yayılma qabiliyyətinə malikdir...

***- İndi daha təhlükəslisi - Hindistan variantı yayılıb və dünya onun qarşısında aciz qaldığını bildirir...***

- Hindistan variantı İngiltərə variantından mutasiyasından ortaya çıxıb. Təsəvvür edin: virus bir dəfə dəyişir, sonra həmin yeni variantın özü dəyişir. Bütün bunlar yalnız Hindistanda deyil, bütün dünyada tibb alimlərini çaşdırır.

***- Hindistanda tibb sənayesi yüksək inkişaf edib, dünyanın hər yerinə dava-dərman, tibbi avadanlıq satır, savadlı həkimləri var və sair. Görünən budur ki, ölkə səhiyyəsi bu cür fövqəladə vəziyyətlərə hazır deyilmiş...***

- Koronavirus tək Hindistanı deyil, bütün dünyanı qəfil yaxalayıb. Heç bir ölkə bu cür təhlükəyə hazır deyildi. Ona görə də çətinliklər, əlbəttə, mövcuddur. Bilirsiniz, insanlar arasında təşviş, qorxu var. Adi oksigen balonları haqda bir söz deyim: əvvəldən adamlar oksigen balonlarını alıb evlərinə aparıblar. Özü də lazım olandan daha çox. Həm də baxmırlar ki, koronaya yaxalanıblar, ya yox, təşvişə düşüb ehtiyatlarını görüblər. Axı təxminən on dəfə artan tələbatı istehsal qarşılaya bilmir. Odur ki, qıtlıq hiss olunmaqdadır. Bütün bu kimi amillər, üstəlik qaydalara uymamaq son iki həftədə yoluxma hallarının iki dəfə artmasına gətirib çıxarıb. Təsəvvür edin ki, iki həftə əvvəl 150-180 min nəfər olan gündəlik yoluxma sayı bu gün 380 min nəfərə yüksəlib. Ölüm halları da həmçinin, gündəlik 4 min civarındadır. Bunlar olduqca yüksək rəqəmdir.

***- Xaricdən tibbi dəstək verilirmi Hindistana?***

- Əlbəttə. Çox sağ olsunlar, ABŞ, Kanada, Avstraliya, Birləşmiş Ərəb Əmirlikləri, Səudiyyə Ərəbistanı, İngiltərə, Fransa, Yeni Zelandiya və digər ölkələr bu ağır günlərdə Hindistana əl tutublar. Dünən Pakistan da Hindistana tibbi yardım edib. İndi dünya elə bir vəziyyətdədir ki, siyasi məsələləri bir yana qoyub insanlıq göstərmək lazımdır. Bir sözlə, koronavirus bizə yaxşı dərs verdi.

***- Heç bir ölkənin bütün ərazisində virus bərabər yayılmayıb, xüsusilə də Hindistan kimi ərazicə böyük dövlətlərdə. Rəqəmlərə nəzər salsaq, Hindistanın hansı ərazilərində pandemiya şəraiti daha ağırdır?***

- İlk gündən Maharaşta ştatı və xüsusilə də bu ştatın inzibati mərkəzi olan, mənim yaşadığım Munbay şəhəri koronavirusa yoluxma sayına görə irəlidə olub. Son vaxtlar digər bölgələrlə müqayisədə gündəlik yoluxma sayında nisbi eniş var, şimal və şərq vilayətlərində də vəziyyət nisbətən yaxşıdır. Mərkəzi və cənub vilayətlərində durum həqiqətən də ağırdır. Paytaxt Dehlidə, Racestan, Qucarat, Maharaşta və sair yoluxma və ölüm hallarına görə öndədirlər. Adamlar birmənalı şəkildə başa düşməlidirlər ki, supermenlik göstərmək olmaz. Maska taxılmalı, dezinfeksiya şərtlərinə əməl olunmalı, təmizliyə fikir verilməlidir.

***- Əslində, Hindistanın vəziyyətini çətinləşdirən bir hal da əhalisinin çox olmasıdır. Müqayisə üçün deyim ki, cəmi 10 milyon nəfər yaşayır Azərbaycanda, amma problemlərin həllində xeyli çətinliklər mövcuddur...***

- Doğrudur. Azərbaycan rəhbərliyini gördüyü uğurlu işlərdən dolayısı təbrik edirəm. Bəziləri həftəsonu yasaqlara işarə edərək deyir ki, virus həftnin beş günü dincəlir, şənbə-bazar çıxır küçəyə. Ay qardaşlar, nə danışırsınız, insanlar çörək qazanmalıdır. Həftənin beş günü işə gedən insanları daşımaq üçün nəqliyyat çalışmalıdır. Həftəsonu iki gün hər kəs evdədir onsuz da, nə vacibdir ki, bu iki gün ərzində dənizkənarı bulvarda, Nizami küçəsində ("Torqovı" nəzərdə tutulur - V.T.) piyada gəzişəsiniz, mollara gedəsiniz!? Axı hökumət bu yasaqlarla sizi virusdan qorumağa çalışır. Azərbaycan demokratik ölkədir, heç kimin azad hərəkətinə həbs qoyulmur.

Sadəcə, avtobusların fəaliyyəti dayandırılır ki, heç olmaya bu iki gün ərzində insanlar ictimai yerlərdə daha az olsunlar. Virus pusquda dayanıb gözləyir ki, insanların ən zəif yerini tapıb yoluxdursun. Odur ki, mən də bir həkim olaraq hamıdan xahiş edirəm: maskasız evdən çıxmayın və məsafəni qoruyun.

***- Hindistanda aşılanma prosesi necə gedir?***

- Hindistan aşılanmış insanların sayına görə dünyada ABŞ-dan sonra ikinci yerdədir. Bildiyimə görə, ABŞ-da 240 milyon, Hindistanda isə 200 milyondan bir az artıq insana birinci doza aşı vurulub.

***- Sizdə əhali Amerikadakından dördqat çoxdur...***

- Problem də bundadır - Hindistanda 1,4 milyard insan yaşayır və 200 milyon aşılanmış vətəndaş cəmi yeddidə bir deməkdir. Təsəvvür edin ki, bir belə əhaliyə oksigen balonu lazımdır, hardan tapmaq olar bu sayda oksigen balonunu? Odur ki, insanlar qaydalara riayyət etməklə xəstəliklə mübarizədə hökumətə dəstək verməlidir.

***- Əhaliyə hansı peyvəndlər vurulur?***

- İki peyvənddən istifadə edilir: Biri "AstraZeneka"nın Hindistanda istehsal olunan variantı "Covisheld", digəri isə yenə də Hindistanda istehsal olunan "Covaxin"dir (Bharat Biotech). İndi Rusiya istehsalı olan "Sputnik V" vaksinləri də gəlməyə başlayır. Rusiya aşısının Hindistanda istehsalına da başlanılacaq. Bundan əlavə, Amerikadan Conson and Conson, "Pfizer-BioNTech", "Moderna" və sair kimi vaksinlər də göndərilir. Əlbəttə, yaxın gələcəkdə Hindistanda vaksin istehsalı genişləndiriləcək, çünki tələbat böyükdür. Ən azı, İsrail variantının tətbiqi - əhalinin minimum 60-70 faizinin, hansı ki, bura əsasən orta və yuxarı yaşlı insanlar daxildir, aşılanması vacibdir. Bu isə o deməkdir ki, Hindistanda, ən azı, 700 milyon insana iki doza aşı vurulmalıdır ki, virusa yoluxma təhlükəsi azalsın.

***- Pandemiya müddətində hansısa təsirli dərman vasitəsi istehsal edə bilibmi Hindistan?***

- Məsələn, "Remdesivil" var apteklərdə. Bu dərman ABŞ istehsalıdır, amma Hindistanda da zavodu var. Günümüzdə bu dərmanı tapmaq çox çətindir, yəni tələbat böyük olduğu üçün qıtlaşıb. İnsanlar lazım oldu-olmadı alıb aparıblar ki, birdən evdə-ailədə kimsə koronaya yoluxar, ya da qara bazara yol tapıb.

Bizdə bu dərmanın qiyməti Azərbaycan pulu ilə hardasa 25 manata satılır. Amma indi apteklərdə çətin tapılan bu dərman qara bazarda bir dozası 650 manata satılır. Onu da nəzərə alaq ki, bu dərmandan minimum 4-5 doza vurulur. Ümumi əhali kütləsindən söhbət gedir, bu qiymətə dərmanı necə alsınlar? Odur ki, bu alçatmazlıq əhalidə təşviş, narahatlıq yaradır.

***- Virusdan mümkün qədər qorunmaq üçün nə məsləhət görərdiniz?***

- Birmənalı şəkildə immuniteti qaldırmaq lazımdır. "C" vitamini ilə zəngin qidalar yeyilməlidir. Əsl mövsümü olduğu üçün bacardıqca göy-göyərti, meyvə yeyilməlidir. Siqaret çəkmək qəti şəkildə qadağandır. Spirtli içkidən - onsuz da Azərbaycanda müqəddəs Ramazan ayıdır - tamamilə uzaq durmaq lazımdır. Bunlar immuniteti aşağı salan başlıca amillərdir. Azərbaycan əhalisinə bir sözüm var: 2020-ci il pandemiya vəziyyətinə baxmayaraq, sizin üçün uğurla başa çatdı və 2021-ci ili qalib dövlət, qalib xalq olaraq yaşayırsınız. Uzun illərdir dəyişməz qalan işğalı cəmi 44 günlük əkshücumla sonlandırdınız. Bu, Azərbaycan Prezidentinin çox böyük strategiyası, düşünülmüş plan və proqramının sayəsində mümkün olub. 25 ildir bu ölkədə yaşayan bir sakin olaraq mən və ailəm ürəkdən sevinirik Azərbaycanın uğuruna, özü də haqlı uğuruna. Bu məsələdə haqq və ədalət birmənalı şəkildə Azərbaycanın yanındaydı. 2783 şəhidiniz, nə qədər qaziniz var. Adam şəhid anaların gözünə baxa bilmir utandığından. Çalışın, koronavirus təhlükəsini də adlayın və qazandığınız uğura daha bir uğur əlavə edin.

***- Bütün təhlükələrə rəğmən, çox insan peyvənd vurdurmur - qorxur. Bir həkim olaraq bu cür insanlara nə məsləhət verərdiniz?***

- Peyvənd olunmaqdan çəkinənlər əslində insanlara çox böyük ziyan vururlar. Peyvəndin bu ziyanı var, nə bilim nə var deyənlər şayiə yayıblar ki, "AstraZeneca" qanda tromb yaradır, ay insanlar, yeddi milyon insan arasında 11 nəfərdə yan təsir ortaya çıxıb, bu təsadüf cəmiyyət üçün təhlükə törətmir. Gedin "Semaşko"ya, Mərkəzi Kliniki Xəstəxanaya, görün, orada hər gün neçə adama qanda tromb diaqnozu qoyulur. Mütləq aşı vurdurmalıdır hər kəs. Bu halda ölüm faktı aradan qalxacaq, hətta gələcəkdə yoluxma risqi yaransa, çox yüngül, bəlkə də hiss etmədən keçirəcəksiniz. Yenə deyirəm, yetər ki, mütləq hansı firmanın olmasına baxmayaraq aşı vurdurun. İsraillə baxın, əhali yeni və azad dönəmə qədəm basır, bir vaxtlar ən böhranlı vəziyyəti yaşayan İngiltərədə artıq çətin günlər arxada qalıb. Niyə, çünki kütləvi aşılanmaya getdi əhali. Aşılanma sürətlə getməlidir ki, insanlar yoluxma risqindən uzaqlaşsın. Aşılanma sürətlə getməlidir ki, sabitləşən həyatda zavodlar normal işləsin, insanlar rahat yaşasın.

Məktəbi onlayn qaydada oxumaq olar, amma zavodu, fabriki bu yolla işlətmək mümkün deyil axı. Hindistanda bir atalar deyimi var: İnsan ölməsə, çox şey qazana bilər. Yeri gəlmişkən, mən Azərbaycan Hökumətinə təşəkkür edirəm ki, ölkədə yaşayan qeyri-vətəndaşları da pulsuz peyvəndlə təmin edir. Mən 83 yaşlı anamı apardım, dəmədilər ki, xarici ölkə vətəndaşıdır, hamı kimi ona da peyvənd vurdular.

***- Əgər dünyada aşılanma prosesi normal axarıyla davam edərsə, necə təxmin edirsiniz, pandemiya nə vaxt başa çatacaq?***

- Bu barədə dəqiq bir şey deyə bilməyəm. Aşılanma sürətlə gedərsə, güman ki, 2022-ci ilin sonu üçün müsbət nəticə ala bilərik. Bir misal çəkim: üzvü olduğum "Rotary İnternational Club" 1985-ci ildə qərara gəldi ki, dünyada "Polio Vaccine"ya son qoysun. Yadımdadır, 2001-ci ildə - ümummilli liderin vaxtı idi - BMT-nin bəyanatı oldu ki, Azərbaycanda artıq yüz faiz bu xəstəlik yoxdur. Ardıyla da bütün ölkələrdə bu uğur qazanıldı. Yalnız üç dövlətdən başqa: Əfqanıstan, Nigeriya və Pakistandan başqa. Əfqanıstanda məlum hərbi vəziyyət buna imkan vermirdi. Nigeriya və Pakistanda isə elə bölgələr var ki, orada bu proqramı icra etmək mümkün deyildi. Məsələn, Nigeriyada terror təşkilatı, Pakistanda isə bəzi ucqar yerlərdə yerli tayfa rəhbərlərinin fətvası imkan vermirdi. Hindistanda 1975-ci ildək mövcud olan Ospo xəstəliyi peyvənd olunmaqla aradan qaldırıldı. Yəni dəmək istəyirəm ki, peyvənd istənilən xəstəliyi aradan qaldırmaq üçün yeganə vasitədir.

*“Daha bir faktor da var - bu, hər 12 ildə bir dəfə təkrarlanan hind milli ənənəsi olan “Kumbh Mela” dini ayinidir...*

*“Təsəvvür edin ki, iki həftə əvvəl 150-180 min nəfər olan gündəlik yoluxma sayı bu gün 380 min nəfərə yüksəlib...*

*“Hindistan aşılanmış insanların sayına görə dünyada ABŞ-dan sonra ikinci yerdədir...*

***Vüsal Tağıbəyli***

## SUAL-CAVAB

***Fiziki şəxslər tərəfindən neçə kiloqram nərə cinsli balıq və balıq kürüsü gömrük ödənişlərini ödəmədən Azərbaycan Respublikasından kənara çıxarıla bilər?***

- Azərbaycan Respublikası Nazirlər Kabinetinin 14 oktyabr 2013-cü il tarixli 305 nömrəli Qərarı ilə təsdiq edilmiş «Fiziki şəxslər tərəfindən istehsal və kommersiya məqsədləri üçün nəzərdə tutulmayan malların Azərbaycan Respublikasının gömrük sərhədindən keçirilməsi Qaydaları»nın 2.1.12-ci bəndinə müvafiq olaraq fiziki şəxslər hər təqvim ayı ərzində 1 dəfə gömrük ərazisindən 5 kiloqrama qədər nərə cinsli balıq və 125 qrama qədər nərə cinsli balıq kürüsünü Azərbaycan Respublikasından kənara çıxara bilərlər.

***İstehlakçıya qazın verilməsi hansı hallarda dayandırıla bilər?***

- Azərbaycan Respublikası Nazirlər Kabinetinin 2011-ci il 12 may tarixli 80 nömrəli qərarı ilə təsdiq edilmiş "Qazdan istifadə Qaydaları"nın 6.1-ci bəndinə əsasən Qaz paylayıcısı aşağıdakı hallarda qazın verilməsini dayandıra bilər:

- istehlakçının müvafiq yazılı müraciəti (qaz təchizatının dayandırılmasının səbəbi və müddəti göstərilməklə) olduqda;
- təmir-profilaktika və qəza işləri görüldükdə, o cümlədən baş verən yanğının və ya qaz sızmasının qarşısı alındıqda;
- istehlakçının qaz qurğusu Azərbaycan Respublikasının Antiinhisar və İstehlak Bazarına Nəzarət Dövlət Agentliyin müəyyən etdiyi dövlət standartlarının tələblərinə cavab vermədikdə;
- qaz paylayıcısının istehlakçıya verdiyi qazın sayğacla müəyyənləşdirilən hesabı istehlakçıya qaz paylayıcısı tərəfindən təqdim edildikdən (göndərildikdən) sonra bir ay müddətində tam ödənilmədikdə;
- qaz paylayıcısı ilə müvafiq müqavilə bağlanılmadıqda;
- İstehlakçı bu Qaydaların 2.7-ci bəndinə uyğun olaraq, Fövqəladə Hallar Nazirliyinin və Energetika Nazirliyinin səlahiyyətli nümayəndələrini qaz qurğularına, tüstü bacalarına və qazpaylayıcı şəbəkəyə texniki baxış keçirmək üçün onun mülkiyyətində və ya istifadəsində olan tikinti obyektinə daxil olmalarına manəə törətdikdə, həmin orqanların göstərişi əsasında;
- Fövqəladə Hallar Nazirliyinin və Energetika Nazirliyinin səlahiyyətli nümayəndələri tərəfindən tərtib edilmiş texniki baxış aktında qeyd olunmuş qəza və (və ya) bədbəxt hadisələrə səbəb ola biləcək nöqsanlar istehlakçı tərəfindən nəzərdə tutulmuş müddətdə aradan qaldırılmadıqda həmin orqanların göstərişi əsasında;
- məhkəmənin qərarı ilə;
- dini ekstremizm əleyhinə xüsusi əməliyyat aparıldıqda, həmin əməliyyatın aparılma zonasında, dini ekstremizm əleyhinə xüsusi əməliyyat aparan orqanların - Daxili İşlər Nazirliyinin və Dövlət Təhlükəsizliyi Xidmətinin göstərişləri əsasında.

***Sığortaçı hansı hallarda sığorta ödənişinin verilməsindən imtina edə bilər?***

- Əgər sığorta hadisəsi sığorta olunanın həmin hadisənin baş verməsinə yönəldilmiş qəsdən etdiyi hərəkətlərinin nəticəsi olarsa, hadisə sığorta olunanın əmək funksiyalarını icra edərkən alkoqollu içkilər, narkotik vasitələr və psixotrop, toksik və digər zəhərli maddələrin təsirindən sərxoş vəziyyətdə olması halında baş verərsə və Mülki Məcəlləsinin 935-ci və "İcbari sığortalar haqqında" Azərbaycan Respublikası Qanununun 21-ci maddələrinə uyğun olaraq sığorta ödənişindən imtinanın digər ümumi əsasları mövcud olarsa, o zaman sığorta ödənişinin verilməsindən imtina edilə bilər.

***Hansı halda ikinci dərəcə əlillik müddətsiz təyin edilir?***

- Tibbi göstəriş olan aşağıdakı xüsusi hallarda ikinci dərəcə əlillik müddətsiz təyin edilir:

2.4.1. ürək ritminin süni tənzimləyicisi qoyulduğu hallarda ürək qüsurları və ya miokardda baş vermiş dərin dəyişikliklər nəticəsində qan dövranının davamlı olaraq ikinci dərəcə çatışmazlığı (I01-I09,I11.0, I13.0-I13.2, I23-I23.8, I24-I24.8, I25.3-I25.5, I50-I50.9, Z95.0);

2.4.2. nefrektomiya nəticəsində və ya anadangəlmə bir böyrəyin olmaması: ikinci dərəcəli xroniki böyrək çatışmazlığı ilə (N18-N18.9, Q60, Z90.5);

2.4.3. şizofreniya, paranoidpsixotik halı (remissiya baş verməyən hal) (F20-F20.9);

2.4.4. emosional-iradi pozuntular və psixopatabənzər davranışla müşayiət olunan imbesillik və ya debillik İQ=35-50 arası, o cümlədən orta dərəcəli kəmağılıq(demensiya) (F60.0-F62.9, F45-F45.9, F48-F48.9, F70-F79);

2.4.5. dağınıq skleroz (G35);

2.4.6. bir budun güdül (Z89.8);

2.4.7. bir əlin olmaması (Q71.2, Z89.1);

2.4.8. beyin maddəsində və ya miokardda yad cismin olması - (Z95.0-Z95.8, T82.5);

2.4.9. tez-tez müşahidə olunan daxili qanaxma hemoartrozla müşayiət olunan hemofiliya (D66);

2.4.10. heterozigot B talassemiya və davamlı anemiya ilə müşayiət olunan homoziqot talassemiya (D56.1).

***Sevinc***

## Ekologiya

# "Hava proqnozlarımız 95 faiz özünü doğruldur"

***Hava şəraitinin necə keçəcəyi barədə məlumatlar peşəsindən, fəaliyyətindən asılı olmayaraq hər kəsin maraq dairəsindədir. Azərbaycanda ilkin hidrometeoroloji müşahidələrin tarixi 1800-cü illərə dayanır. Belə ki, ilk müşahidələr 1830-cu ildə Xəzər dənizinin səviyyəsi üzərində, ilk meteoroloji müşahidələr 1843-cü ildə Naxçıvanda başlanıb və sonradan müşahidə şəbəkəsi genişlənərək 1847-ci ildə Lənkəranda, 1848-ci ildə Bakıda və və Şuşada, 1871-ci ildə Gəncədə, 1872-ci ildə Zaqatalada və Şəkidə, 1879-cu ildə Göytəpədə aparılıb.***





**Gülşad Məmmədova,**
Hidrometeoroloji Proqnozlar Bürosunun direktoru

Bu gün isə hava proqnozlarının hazırlanması üçün ən müasir avadanlıqlardan istifadə olunur və hər gün sutkalıq, ikisutkalıq, həftəlik və on günlük proqnozlar hazırlanır. Mövzu ətrafında Hidrometeoroloji Proqnozlar Bürosunun direktoru Gülşad Məmmədova "Həftə içi" qəzetinə müsahibə verib.

***- Gülşad xanım, bu gün hava proqnozunun hazırlanması üçün ölkə üzrə neçə nəfərlik heyət çalışır və əsasən, məlumatlar hansı stansiyalardan əldə edilir?***

- Hazırda Hidrometeorloji proqnozlar bürosunun işçi heyəti 52 nəfərdən ibarətdir. Respublikanı əhatə edən hirdometeoroloji müşahidə şəbəkəsinə daxil olan 73 hidrometeoroloji stansiya və məntəqədən sutka ərzində 8 dəfə hər 3 saatdan bir olmaqla informasiya əldə olunur. Həmçinin avtomat stansiyalardan da fasiləsiz, birbaşa məlumat əldə olunur.

***- Hava proqnozlarının daha dəqiq və operativ təqdim olunması istiqamətində hansı işlər görülür? Hazırda ölkə ərazisində neçə dopler radar fəaliyyət göstərir və radarlar hansı rayonların ərazisində yerləşdirilib?***

- Gözlənilən hava şəraitini daha dəqiq proqnozlaşdırmaq üçün biz dünya praktikasında sınanmış daha müasir proqnoz üsullarından istifadə edirik. Həmçinin faktiki hava şəraitinin dəqiq analizi proqnoz üçün vacib amillərdəndir. Bunu nəzərə alaraq ölkə ərazisində erkən xəbərdarlıq sisteminin qurulmasında böyük addımlar atılıb. Belə ki, faktiki hava şəraitinin müşahidəsi, bulud sistemlərinin izlənilməsi, yağıntı sahələrinin, ildırım-dolu ocaqlarının aşkar edilməsi üçün Göygöl və Şamaxı rayonlarında Baron Dopler meteoroloji radiolokatorı qurulmuşdur.

***- Hava şəraitinin hansı müddət ərzində dəqiq proqnozlaşdırılması mümkündür?***

- Hava proqnozu qisamüddətli və uzunmüddətli proqnozlara bölünür. Qisamüddətli proqnozlar qısa müddəti əhatə edir və dəqiqliyi yüksəkdir. Uzunmüddətli proqnozlar isə daha uzun zaman periodu üçün hazırlanır və nisbətən dəqiqliyi az olur. Hidrometeoroloji proqnozlar bürosunda hər gün sutkalıq, ikisutkalıq, həftəlik və on günlük proqnozlar hazırlanır.

***- Müasir avadanlıqlar uzunmüddətli dəqiq proqnozlaşdırmaya imkan verirmi? Məsələn, bu ilin yayında hava şəraitinin necə olacağını indidən proqnozlaşdırmaq mümkündürmü?***

- Hazırda hava şəraitinin proqnozlaşdırılması zamanı riyazi proqnoz modellərindən, peyk məlumatlarından, radar məlumatlarından istifadə olunur. Müasir proqnoz usullarından istifadə uzunmüddətli proqnozların hazırlanmasına imkan verir. Lakin müddət uzandıqca proqnozun dəqiqliyi bir qədər azalır. Ona görə də yayda hava şəraitinin necə olacağını indidən dəqiq proqnozlaşdırmaq qeyri-mümkündür. Yaxın vaxtlarda bununla bağlı daha dəqiq proqnozu açıqlayacağıq.

***- Son illər hava şəraiti ilə bağlı verilən proqnozların əksəriyyəti özünü doğrultsa da, bəzi günlərdə verilən proqnozlarda qeyri-dəqiqlik müşahidə edilir. Bunun səbəbi nədir?***

- Bu ərazimizin rəngarəng relyef quruluşu ilə əlaqədar olaraq iqlim komponentlərinin mürəkkəb olması ilə bağlıdır. Proqnozların özünü doğrultması hər gün hesablanır və məlumat üçün qeyd edək ki, verdiyimiz proqnozların özünü doğrultması 90-95 faiz təşkil edir. Hava proqnozu barədə dəqiqiliklə məlumat verilməsi kifayət qədər mürəkkəb məsələdir. Belə ki, elə ərazilər mövcuddur ki, bu prosesə nəzərə alınması mümkün olmayan gözlənilməz müdaxilələr ola bilər. Hər bir proqnoz üzrə bu və ya digər dərəcədə ehtimal mövcuddur. Son onilliklərdə dünya meteorologiya elmi hava proqnozu üzrə rəqəmsal texnologiyaların inkişafı sahəsində nəzərəçarpacaq dərəcədə uğurlar əldə etmişdir. Buna baxmayaraq, hava proqnozu hazırlanarkən səhvə yol verməmək mümkün deyil. Nə üçün? İlk növbədə, atmosferin mövcud vəziyyəti barədə bizim biliklərimizin dəqiq və kifayət qədər olmaması ilə izah edilir. Havanı proqnozlaşdırmaq üçün ilk növbədə həmin vaxtda atmosferdə hansı proseslərin baş verdiyini bilmək lazımdır. İki günlük hava proqnozunun verilməsi üçün isə bir neçə min kilometrlik məsafələrdə olan ərazilərdəki faktiki hava şəraiti haqqında məlumat olmalıdır.

> *" Hava proqnozu hazırlanarkən səhvə yol verməmək mümkün deyil*

Bir həftəlik hava proqnozunun hazırlanması üçün isə bütün Yer kürəsində, o cümlədən quru və okean sahələrinin üzərindəki müxtəlif iqlim qurşaqlarında faktiki hava şəraiti barədə məlumatlar olmalıdır. İkincisi isə, proqnozların hazırlanması üçün istifadədə olan metod və modellərin tam mükəmməl olduğunu hesab etmək olmaz. Bu da proqnozun doğrultma faizində özünü göstərmiş olur.

✍ *Sevinc*

# "Nar" və AzTU əməkdaşlığın yeni istiqamətlərini müəyyənləşdirdi

***Ölkədə yerli kadrların yetişməsi, onların beynəlxalq rabitə bazarında seçilən peşəkarlardan birinə çevrilməsi məqsədilə "Nar" Azərbaycan Texniki Universiteti (AzTU) ilə əməkdaşlığın yeni istiqamətlərini müəyyənləşdirib. "Azerfon" MMC-nin ("Nar" ticarət nişanı) Baş İcraçı direktoru Qunnar Panke və AzTU-nun rektoru Vilayət Vəliyev keçirdikləri görüşdə bu barədə müzakirələr aparıblar.***



Əsas prioritet olaraq yaşıl enerji sahəsində əməkdaşlıq imkanlarının dəyərləndirilimesi müəyyən edilib və mövcud layihələrin karantin qaydalarına uyğun şəkildə davam etdirilməsi razılaşdırılıb. Rektor AzTU-nun iqtisadiyyat və sənaye sahələri üzrə kadrlar hazırlamaq imkanı olduğunu bildirib: "Məqsədimiz biznesdən gələn tələblər və tələbələrin biznesin təcrübi problemlərilə tanışlığı əsasında rabitə bazarının ehtiyaclarına uyğun peşəkarlar hazırlamaqdır. Bu, həm də peşəkar ehtiyacın yerli kadrlarla ödənməsi baxımından yerli biznesin marağındadır".

Azerfon MMC-nin Baş İcraçı direktoru Q.Panke isə universitetlə genişmiqyaslı layihələr həyata keçirmək niyyətində olduqlarını bildirib: "İnanıram ki, bizim əməkdaşlığımız texniki sahə üzrə təhsil alan tələbələri yeni nailiyyətlərə ruhlandırır. Əməkdaşlığımızın əsas məqsədi Azərbaycanda rabitə sahəsində peşəkar kadrların hazırlanmasına və onların beynəlxalq rabitə bazarında əcnəbi həmkarlarından daha üstün mövqeyə çatmasına dəstək olmaqdır". "Nar" 2015-ci ildə AzTU ilə imzalanmış Anlaşma Memorandumu əsasında bir sıra layihələr həyata keçirib. "Nar" GSM laboratoriyası, tələbələr üçün nəzəri və təcrübi təlimlər, əlaçıların mükafatlandırılması bu əməkdaşlıq çərçivəsində həyata keçirilir.

## HƏFTƏ REYTİNQ

### Həftənin TƏLTİFİ



Prezident İlham Əliyev Hafiz Paşayevin 1-ci dərəcəli "Vətənə xidmətə görə" ordeni ilə təltif edilməsi haqqında sərəncam imzalayıb. H. Paşayev Azərbaycan Respublikasında təhsilin inkişafında uzunmüddətli səmərəli fəaliyyətinə görə bu mükafata layiq görülüb. Qeyd edək ki, Hafiz Paşayev ADA Universitetinin rektorudur. Onun mayın 2-də 80 yaşı tamam olacaq.

### Həftənin MƏHKUMU



Dövlət Təhlükəsizliyi Xidməti tərəfindən saxlanılan Alimpaşa Məmmədov bu gün məhkəməyə çıxarılıb. İstintaq Şəmkir Rayon İcra Hakimiyyətinin sabiq başçısı Alimpaşa Məmmədov barəsində həbs qətimkan tədbiri seçilməsi üçün məhkəməyə təqdimat verib. Səbail rayon məhkəməsinin hakimi Mədinə Bağırova təqdimatı təmin edərək Alimpaşa Məmmədov barəsində 4 ay müddətinə həbs qərarı çıxarıb.

### Həftənin LAYİHƏSİ



Xəbər verdiyimiz kimi, Prezident İlham Əliyevin Zəngilan səfərində "Ağıllı kənd" layihəsinin təməli qoyulub. Qeyd edək ki, birinci "Ağıllı kənd" pilot layihəsi Zəngilanın 1-ci, 2-ci, 3-cü Ağalı kəndlərini əhatə edir. Layihənin icrası əsasən, 5 komponent üzrə aparılacaq. Bunlar yaşayış, istehsal, sosial xidmətlər, "ağıllı kənd təsərrüfatı" və alternativ enerji sahələridir. Ərazidə ilk olaraq tam izolyasiya olunmuş və innovativ tikinti materiallarından istifadə olunmaqla 200 fərdi evin tikintisi nəzərdə tutulub.

### Həftənin ŞİLLƏSİ



Fox TV-də yayımlanan məşhur "Masumiyyet" serialının qəhrəmanı Hülya Avşarın (Hale Ilqaz) ssenariyə uyğun olaraq vurduğu şillə aktyor Ertuğrul Postoğluyu (İsmail Ilqaz) xəstəxanalıq edib. Avşarın sərt əl hərəkəti həmkarının çənəsinin çıxması ilə nəticələnib. 54 yaşlı aktyor təcili olaraq xəstəxanaya aparılıb. Postoğluya Hülya Avşarın əmisioğlu Dr. Erol Avşar müdaxilə edib. Xəstəxanada müalicə alan aktyor bir müddət sonra yenidən çəkiliş meydançasına qayıda biləcək. Hadisədən sonra "Masumiyyet"in də çəkilişləri müvəqqəti olaraq dayandırılıb.

### Həftənin ETİRAFI



Müğənni Elton Hüseynəliyev müzakirələrə səbəb olacaq açıqlama verib. Sənətçi "Səhər mərkəzi" proqramına qonaq olarkən evdə keçirilən məclislərdə iştirak etdiyini bildirib. "Arada işlər olur, gedirik. Evdə keçirilən məclislərə qatılırıq. Orada böyük ansambl yoxdur, canlı oxuyuruq. 15 nəfərlik ansambldan 3 nəfərə düşmüşük". Qeyd edək ki, pandemiya səbəbi ilə Azərbaycanda toyların, ad günü tədbirlərinin keçirilməsi qanunla qadağandır.

### Həftənin HAKİMİ



Azərbaycan kubokunun yarımfinal mərhələsinin "Zirə" ilə "Keşlə" arasında keçirilən cavab oyunundan sonra xoşagəlməz hadisə baş verib. Matçın yan xətt hakimi Pərvin Talıbov qarşılaşmadan sonra koridorda bir neçə nəfər tərəfindən hücuma məruz qalaraq döyülüb. Hadisənin baş verdiyini təsdiqləyən laysman ona hücum çəkənləri tanımadığını söyləyib: "Hər oyundan sonra tuneldə futbolçulara nəzarət etmək hakimin görəcəyi işdir. Mən də orada durmuşdum ki, oyunçular arasında hər hansı bir xoşagəlməz hadisə yaşansa, baş hakimi məlumatlandırım. Öz yerimi tutub stadiona baxırdım. Elə o anda arxadan 4-5 nəfər üstümə cumub təpik vurmağa başladılar, nalayiq söyüşlər işlətdilər. Mən də yalnız özümü müdafiə etməyə çalışdım. Amma onlar nə futbolçu, nə də məşqçilər idi. Tanımadığım şəxslər idi".

### Həftənin CƏRİMƏLİSİ



Tailandın Baş naziri Prayut Çan-O-Ça maska taxmadığına görə cərimələnib. Ölkədə qüvvəyə minən koronavirusla bağlı məhdudiyyətlərə görə 49 əyalətdə və Banqkokda ictimai yerlərdə maska taxmaq məcburidir. Sosial şəbəkələrdə Baş nazirin maskasız fotoları yayıldıqdan sonra Banqkok qubernatoru onun 6000 bat (190 dollar) məbləğində cərimələndiyini yazıb.

✍ *Azad Əliyev*

## GÜNÜN FOTOSU



**Kolumbiyada vergi islahatları ilə bağlı etirazlar...**

# Hindistanda koronavirus böhranı

**Dr. Ronald Dmello,**
Bakıda fəaliyyət göstərən Hind klinikasının direktoru

Daha bir faktor da var - bu, hər 12 ildə bir dəfə təkrarlanan hind milli ənənəsi olan "Kumbh Mela" dini ayinidir... ▸▸ Səh. 7

## STATİSTİKA



■ Dünyada hazırda 7 mindən az pələng qalıb. Onların bütün növlərinin adı Qırmızı Kitaba salınıb.

■ Pələng həyatda qala bilməsi üçün şirdən iki dəfə artıq ət yeyir. Onun bir ildə yediyi ətin çəkisi 3 tona yaxındır.

■ Statistik göstəricilərə görə eyni pələng tərəfindən öldürülən maksimum insan say 430-a bərabərdir. Onun öldürülməsi üçün İngiltərədən Hindistana xüsusi ovçu dəvət olunub. O, həmin pələngi bir neçə il izlədikdən sonra öldürə bilib.



▸▸ Səh. 5

# Şəhid Xudayarın avazı...